Xalqın qəzeti!

# Xalq qəzeti

№ 125 (30819) 20 iyun 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# “Azərbaycan” məhəlləsi Azərbaycanın Kahramanmaraşa qardaşlıq töhfəsidir

*Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri*




Səhifə ➩ 2

## Azərbaycan–Türkiyə qardaşlığı üzərində yüksələn Kahramanmaraş

*Zəlzələnin yıxdığı şəhər dostluğun möhtəşəm gücü ilə dikəldilir*

**Azərbaycan və Türkiyə arasında münasibətlər dostluq, qardaşlıq və qarşılıqlı yardımlaşma üzərində qurulub. Bu əlaqələr siyasi müstəviyə dərin mənəvi, mədəni və tarixi köklərdən güc alaraq yeksəlib. Son onilliklərdə bu dostluq strateji tərəfdaşlıqla möhkəmləndirilib, xalqlarımızın sevinc və kədərini ortaqlaşdıran sarsılmaz birliyin tükənməz qaynağına çevrilib.**



2023-cü il fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətində baş verən 7.7 və 7.6 bal gücündə iki güclü zəlzələ 11 vilayəti əhatə edərək 50 mindən çox insanın həyatına son qoydu, yüz minlərlə insan evsiz qaldı. Bu, Türkiyə tarixinin ən faciəli təbii fəlakətlərindən biri oldu. Eyni zamanda, qardaş ölkənin bir neçə bölgəsində, o cümlədən Kahramanmaraşda dəhşətli dağıntıları ilə ürək parçalayan bu zəlzələnin ilk saatlarından Azərbaycanın Türkiyənin yanında olması sözügedən qardaşlığın nə qədər möhkəm və dərin dəyərlərə əsaslandığını bir daha sübuta yetirdi. Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə axtarış – xilasetmə qrupları, təcili yardım briqadaları, humanitar yardım karvanları və mütəxəssis heyətləri dərhal hadisə bölgələrinə göndərildi. Bu, sadəcə dövlətlərarası yardım deyildi, həm də qan qardaşlığından irəli gələn təbii bir reaksiya idi.

ardı səhifə ➩ 4

## Paşinyanın Türkiyə səfəri – Ermənistan üçün fayda parametri



Səhifə ➩ 7

## “EUMA nağılı”, yaxud Ritterin qarabasmaları

*Missiya rəhbəri Ermənistandan çıxarılmalı və...*

**Avropa İttiffqının Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən mülki müşahidə missiyasının rəhbəri Makrus Ritter danışıb. Bəribaşdan bildirək: buna danışmaq yox, sərsəmləmək demək daha münasibdir.**

Əlbəttə, Ritterin başlanğıcda bildirdiyi fikirləri anormal qiymətləndirmək istəməzdik. Məsələn, o deyib ki, Aİ-nin müşahidə missiyasının nümayəndələri bir sıra ölkələrdə müxtəlif öhdəliklərlə fəaliyyət göstəriblər, lakin heç bir yerdə Ermənistandakı münasibətlə, qonaqpərvərliklə rastlaşmayıblar və bu cəhət onların motivasiyasını artırır, effektiv iş üçün şərait yaradır.

Hərçənd, onu da deyək ki, Aİ müşahidəçilərinin dünyanın hansısa nöqtəsində Ermənistandakı kimi missiyaları olmayıb. Dəqiq desək, qurum nə vaxtsa heç bir dövlətə Ermənistana göstərdiyi kimi dəstək göstərməyib. Yenə də Aİ-nin öz işidir. Effektivliyə gəlincə, Ritter müşahidəçilərin şərti sərhədin bir başından o biri başına “pikap” avtomobillərlə məsafə qət etmələrini iş sayırsa, onun həqiqi fəaliyyətlə bağlı təsəvvürlərinin qısırlığına heyrətlənməmək olmur.




ardı səhifə ➩ 5

## Bakı: Yeni qlobal moderator!

*Azərbaycanın ekoloji və təhlükəsizlik diplomatiyası bəyan edir: “Sülh iqlimsiz, iqlim isə sülhsüz mümkün deyil”*




**Azərbaycan bu ideyanın təşəbbüskarı və daşıyıcısı kimi qlobal diplomatiya səhnəsində yeni roluna qədəm qoydu: iqlim vasitəsilə sülh quruculuğu. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Bonn şəhərində keçirilən 62-ci Sessiyası çərçivəsində COP29 Sədrliyinin təşkilatçılığı ilə baş tutan “Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi Tərəfdaşlığı: Sülh naminə İqlim Fəaliyyətinin Təşviqi” adlı yüksək səviyyəli dəyirmi masa geosiyasi mahiyyət daşıyan diplomatik hadisə idi. Bəli, bu yalnız ekoloji təşəbbüskarlıq deyil, siyasi strategiyadır.**

ardı səhifə ➩ 7

## Strateji geosiyasi rəqabət və hərbi qarşıdurmalar



Səhifə ➩ 6

## 5 aylıq yatırım – 6 milyard 695 milyon manat



Səhifə ➩ 8

## Pənahəli xan abidəsi Şuşaya əzəmət gətirər

Səhifə ➩ 10

# Prezident İlham Əliyev bp şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossu qəbul edib.**

Söhbət zamanı uzun illərdir Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.

Ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin səmərəli şəkildə Azərbaycanın sosial-iqtisadi inkişafına yönləndirildiyi qeyd edildi.

Bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın roluna toxunuldu, ölkəmizdə karbohidrogen enerji resursları ilə bərabər bərpaolunan enerji mənbələrinin də böyük potensialının olduğu vurğulandı. Bu xüsusda bp şirkətinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin əhəmiyyəti qeyd olundu.

Görüşdə SOCAR ilə bp arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri



## *Kahramanmaraş Beynəlxalq Hava Limanında qarşılanma*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyəyə işgüzar səfərə gəlib.**

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.



# Kahramanmaraşda Azərbaycan və Türkiyə prezidentlərinin görüşü



**İyunun 19-da Kahramanmaraşda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Milli bayramınız - 28 May – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə yaradılmasının qeyd olunduğu bu tarixi gün çətin dövrdə belə azadlıq, demokratiya və bərabərlik ideallarını cəsarətlə və inamla qorumağı bacaran xalqın mətanətini bütün dünyaya xatırladır.

Ötən onilliklər ərzində Azərbaycan tarixi yol keçərək bizi ruhlandıran yenidənqurma işləri ilə müasir, inkişaf etmiş bir dövlət qurmuş, suverenliyini bərpa etmişdir.

Ölkələrimiz arasındakı dostluğa görə Sizə minnətdarlığımızı çatdırır, siyasi əlaqələrin, eləcə də təhsil, mədəniyyət, enerji, davamlı inkişaf, çoxtərəfli dialoq sahələrində ikitərəfli münasibətlərin möhkəmləndirilməsinin davam etdirilməsi ilə bağlı niyyətimizi bir daha bildirirəm.

Zati-alinizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Ən yüksək ehtiramla,**

*Coze Ramuş-HORTA,*
*Timor-Leste Demokratik Respublikasının Prezidenti*

*

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Keniya Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə, Sizin simanızda Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Keniya ilə Azərbaycan arasında son iyirmi ildə həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə inkişaf edən mehriban münasibətlər mövcuddur. Qarşılıqlı faydalı tərəfdaşlığımızın yeni sahələrində, o cümlədən ticarət və investisiyalar, təhsil, informasiya-kommunikasiya texnologiyaları, iqlim fəaliyyəti, enerji və digər istiqamətlərdə böyük potensial vardır. Ümidvaram ki, bu əlaqələr xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcəkdir.

Fürsətsən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Uillyam Samoei RUTO,*
*Keniya Respublikasının Prezidenti*

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Konqo Hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, Sizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

Ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Zati-alinizlə birgə daha çox səy göstərməyə tam hazır olduğumu və bu işə sadiqliyimi bir daha bildirirəm.

Zati-alinizlə aramızda mövcud olan nümunəvi şəxsi dostluq münasibətlərinə əsaslanaraq, cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Deni Sassu-NQESSO,*
*Konqo Respublikasının Prezidenti*

# “İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin 143-cü kitabı çapdan çıxıb

**“Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu çox gözəl üstünlüklər yaradır, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir.**

Türk dünyasının birləşməsi yolunda əziz qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edilib, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yaranıb. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verir və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək, ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmir”.

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 143-cü kitabında yer alan bu fikirləri dövlətimizin başçısı bu il martın 5-də Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində çıxışı zamanı söyləyib.

Çoxcildliyin 143-cü kitabında toplanmış materiallar 2025-ci ilin fevral-aprel aylarını əhatə edir.




Yeni kitaba Azərbaycan Prezidentinin ölkəmizə səfərə gəlmiş Pakistanın Baş naziri ilə görüşünə, Azərbaycan-Pakistan biznes-forumunda iştirakına, Qvineya-Bisau Respublikasının, Şimali Makedoniya Respublikasının, Almaniya Federativ Respublikasının prezidentləri ilə görüşlərinə, Türkiyə Respublikasına işgüzar səfərinə dair materiallar daxil edilib.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və “Yaşıl enerji” Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında çıxışının mətni də yer alıb.

Oxucular bu kitabda dövlətimizin başçısının Ağdam rayonuna, Xankəndi şəhərinə səfərlərinə, Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlərlə tanışlığına, kəndə yeni köçmüş sakinlərlə görüşlərinə aid materiallar ilə də tanış ola bilərlər. Həmçinin bu nəşrə Azərbaycan Prezidentinin Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulmadan sonra açılışında, Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılış mərasimində iştirakı, Ağdərə rayonunun Həsənriz kəndinə köçmüş bir qrup sakinlə görüşü, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlığı haqqında informasiyalar daxil edilib.

Bu kitabda Prezident İlham Əliyevin, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumunda çıxışının, Forum zamanı “Euronews” televiziyasına müsahibəsinin mətnləri, habelə bu tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmiş yüksəksəviyyəli qonaqlarla görüşləri haqqında informasiyalar toplanıb.

143-cü kitabda Prezidentin Novruz və Ramazan bayramları münasibətilə Azərbaycan xalqına təbriklərinin mətnləri də verilib.

Xatırladaq ki, aprel ayının əvvəlində ölkəmizin həyatında mühüm hadisələrdən biri də ADA Universitetində “Yeni dünya nizamına doğru” mövzusunda keçirilmiş beynəlxalq forum olub. Forumda iştirak etmiş Prezident İlham Əliyev ona ünvanlanmış çoxsaylı sualları cavablandırıb. Həmin forum haqqında materialların bir hissəsi bu kitaba daxil edilib və davamı növbəti kitabda yer alacaq.

Çoxcildliyin buraxılışına məsul “Azərnəşr”in baş redaktoru Ələvsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

*XQ*

# Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimi

**İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Mərasimdə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.

Sonra “Azərbaycan” məhəlləsinə həsr edilmiş videoçarx nümayiş etdirildi.

Azərbaycan Respublikasının Prezidenti tədbirdə çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

– Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.




Sayın tədbir iştirakçıları, əziz kahramanmaraşlılar.

İlk növbədə sizə Azərbaycan xalqının ən səmimi salamlarını çatdırıram. 2023-cü il fevralın 6-dakı dəhşətli zəlzələ nəticəsində həlak olmuş, həyatını itirmiş bütün bacı-qardaşlarımıza Allahdan bir daha rəhmət diləyirəm.

Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər.

Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır. Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir.

Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün “Azərbaycan” məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür.

Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır.

“Azərbaycan” məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir.

Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir.

Bu gün ilk dəfə olaraq bu gözəl diyarı ziyarət edirəm. Mən Türkiyənin bir çox yerində olmuşam. Gözəl Türkiyənin gözəl təbiətini görmüşəm. Burada da, qədim türk torpağı Kahramanmaraşda olmağımdan da çox məmnunam. Kahramanmaraşlılar dəhşətli zəlzələ ilə üz-üzə qalaraq öz iradələrini göstərdilər, sınmadılar, əyilmədilər. Bilirdilər və inanırdılar ki, onların arxasında güclü lider Rəcəb Tayyib Ərdoğan dayanır. Onların arxasında güclü Türkiyə dayanır. Bu, təbii ki, bir daha kahramanmaraşlıların nə qədər öz doğma xalqına, liderinə, dövlətinə bağlı olmasını göstərir.

Zəlzələ bölgələrində yaşayan bütün insanlara Azərbaycan xalqının hörmətini, sevgisini ifadə edirəm. Siz bilirsiniz və bilməlisiniz ki, Azərbaycanda sizin 10 milyon bacı-qardaşlarınız var. Azərbaycanlılar da bilirlər ki, Türkiyədə 80 milyondan çox bacı-qardaşlarımız var.

Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

*

Sonra Türkiyə Respublikasının Prezidenti çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Əziz qardaşım, cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, əziz kahramanmaraşlılar.

Digər əyalətlərimizdəki hörmətli qardaşlarım.

Sizi ən səmimi duyğularımla, həsrətlə, sevgi ilə salamlayıram.

Buradan sizin vasitənizlə məhəllələri, rayonları və evləri ilə bütün Maraşa salamlarımı, ehtiramımı göndərirəm. Eyni qaydada, canlı bağlantı ilə hazırda bizi izləyən vətəndaşlarımı da Maraşdan hörmətlə salamlayıram. Açılışını etdiyimiz “Azərbaycan” məhəlləsinə töhfə verən Can Azərbaycandakı on milyon bacı-qardaşlarımızı hörmətli dostum, qardaşım Prezident İlham Əliyevin şəxsində ürəkdən salamlayıram.

Sizin qarşınızda İlham qardaşıma və hörmətli heyətinə ikinci evləri olan Türkiyəyə "Xoş gəldiniz!" deyirəm. Belə mənalı və bizim üçün əlamətdar bir mərasimlə əlaqədar onları Maraşda qəbul etməkdən məmnunluq duyuruq.

Bəli, bu gün burada "Bir millət, iki dövlət" şüarının həyata keçməsinə bir daha şahidlik edirik. Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan", - deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin.

İlham qardaşıma və heyətinə kahramanmaraşlılar adından təşəkkür edirəm. Burada, ilk növbədə, bunu vurğulamaq istəyirəm: Türkiyə ilə Azərbaycan arasındakı tale birliyinin ən konkret nümunələrindən biri açılışını etdiyimiz mənzillərdir. Bilirsiniz, 2023-cü il fevralın 6-da tariximizin ən böyük təbii fəlakətlərindən birini yaşadıq. Keçmişdən bu günə bir çox kədərli xatirələrimiz oldu. Ancaq həmin gün 11 əyalətimizdə gördüyümüz fəlakət və dağıntılar hamısından ayrı idi, 12 min 796-sı Maraşda olmaqla 53 min 735 canımızı torpağa tapşırdıq. Rəbbim bizə belə bir faciəni bir daha yaşatmasın. Fürsətdən istifadə edərək, zəlzələdə həyatını itirən bacı-qardaşlarımıza bir daha Allahdan rəhmət, digər bacı-qardaşlarıma səbir diləyirəm.




Şükür olsun, zəlzələnin ilk anından etibarən inancımızı itirmədik. Yaşadığımız imtahan qarşısında bir gün belə ümidsizliyə qapılmadıq. Millətimizlə könül-könülə verdik və sürətlə özümüzü topladıq.

Əlbəttə, əziz qardaşlar, bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz "Səninləyəm, Türkiyəm!" deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var.




“Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, inşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir. Hazırda burada ümumilikdə 2778 mənzilin, mağazanın və ofisin inşası sürətlə davam edir. Bu gün artıq layihələrimizin demək olar ki, yarısını başa çatdırdıq. İnşallah, ilin sonuna qədər qalan işlərimizi də başa çatdırıb öz sahiblərinə təhvil verəcəyik.

Burada böyük məmnunluqla demək istəyirəm ki, cənab İlham Əliyevin liderliyi ilə yardım edən bu qardaşlıq əli Maraşın qəlbinə qardaşlıq möhürünü vurub. Burada atılan hər addımda, vurulan hər mismarda, - istər Anadoluda, istər Azərbaycanda olsun, - türkün alın təri, səmimiyyəti və duası vardır. Rəbbim onlardan razı olsun. Fəhləsindən mühəndisinədək əməyi keçən hər bir qardaşıma, azərbaycanlı qardaşlarımızın hamısına təşəkkürlərimi bildirirəm. Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinə və Mənzil İnşaatı İdarəmizin rəhbərliyinə ayrılıqda şəxsən öz adımdan və millətim adından təbriklərimi çatdırmaq istəyirəm. Məhəlləmizin sakinlərinin yeni evlərində firavanlıqla, cansağlığı və könül xoşluğu ilə gözəl günlərdə şad-xürrəm yaşamalarını arzu edirəm.

Əziz maraşlılar, çox hörmətli qonaqlar, buradakı kimi layihələrlə "Əsrin fəlakəti"ndə dağılan şəhərlərimizə ümid, gələcəyimizə güvən verəcək yeni şərait yaradırıq. Mənzil layihələri ilə yanaşı, sosial təminat sahələri, infrastruktur layihələri ilə yeni yaşayış sahələri qururuq. Tarixi əraziləri öz əslinə uyğun şəkildə yenidən canlandırırıq. Kahramanmaraşda, Qapalı çarşıda qeydiyyatda olan mədəniyyət abidələrimizi təmir edir, tarixi Dəmirçilər çarşısında iş yerləri inşa edirik. Adıyamanda tarixi şəhər meydanımızı, Malatyada Şire bazarını, Kuyumcular, Yüzüncü il və Bakırcılar çarşılarını, Hatayda Uzun çarşını, Habib-i Neccar məscidimizi, yüzlərlə illik Kamal Paşa və Qurtuluş prospektlərini tarixi görkəminə uyğun olaraq dirçəldirik.

Dünyadakı və bölgəmizdəki şərtlər nə olursa-olsun, bizim prioritetimiz bəllidir. Biz hökumət olaraq ən qısa müddətdə "Əsrin fəlakəti"nin şəhərlərimizdə açdığı yaraları sarımaq dərdindəyik. İqtidarımızın heç bir dövründə millətimizə xəyal qırıqlığı yaşatmadıq. Seçki meydanlarında verdiyimiz sözləri, inşallah, burada da yerinə yetirəcəyik.

İnşallah, bu anlayışla zəlzələ bölgəsini nəhəng tikinti meydanına çevirdik. İnanın, heç bir ölkə belə böyük təbii fəlakətin altından bu qədər sürətli şəkildə qalxa bilməz. Fəlakətin ilk günündən indiyədək demək olar ki, bir Avropa ölkəsi böyüklüyündə ərazini inşa etdik. On bir əyalətimizdə qurulan inşaat meydanlarında yüz minlərlə memar, mühəndis və fəhlə qardaşımız gecə-gündüz işlədi. “Əsrin inşa”sı çərçivəsində təhvil verdiyimiz evlərin sayı hər ötən gün artır. Siz də görürsünüz, müxalifət tamamilə özlərinin daxili çəkişmələri ilə məşğul olarkən biz infrastrukturu və yüksəkkeyfiyyətli işlərlə başa çatdırdığımız mənzilləri öz sahiblərinə təhvil veririk. İstismara verdiyimiz mənzil, kənd evi və iş yerinin sayını sentyabrda 100 minə, oktyabrda 130 minə, noyabrda 155 minə, yanvarda 201 minə çatdırdıq. Bu gün bu rəqəmi 250 minə çatdırırıq.

Bir azdan birbaşa bağlantı ilə həyata keçirəcəyimiz püşkatmada Hatayımızda 21 min 114 mənzil və 1125 iş yeri, Malatyamızda 8064 mənzil və 1097 iş yeri, Adıyamanımızda 3554 mənzil və 1723 iş yeri, Qaziantepimizdə 675 mənzil, Diyarbəkirimizdə 2636 mənzil, Adanamızda 490 mənzil, Şanlı Urfamızda 1263 mənzil, Elazığımızda 1429 mənzil, Osmaniyemizdə 1336 mənzil, Kilisimizdə 105 mənzil, Sivasımızda 85 mənzil, Kayserimizdə 49 mənzil, Kahramanmaraşımızda 3567 mənzil və 744 iş yeri olmaqla, ümumilikdə, 49 min 56 mənzil və mağazanı sahiblərinə təhvil verəcəyik. Hədəfimiz 2025-ci ilin sonunadək 453 min mənzil və obyektin inşasını başa çatdırmaqdır.

İndiyədək zəlzələ bölgəmizə 2 trilyon lirədən çox sərmayə yatırdıq. Əsrin fəlakəti tamamilə aradan qalxsın deyə 2025-ci il büdcəmizdə 584 milyard lirə vəsait ayırdıq. İlin sonunda bütün şəhərlərimizi yenidən ayağa qaldırmağı, geridə yarımçıq qalan bir hekayə də buraxmamağı hədəfləyirik. Müxalifət anlamasa da, yaşadığımız proses milli mücadiləyə bərabərdir. Biz Allahın izni ilə bu mübarizəni alın ağlığı ilə aparırıq.

Nə deyirdilər? Hökumət bu dağıntının altından qalxa bilməz. Bu acgözlərə baxmayaraq, əzmlə, səbirlə, qətiyyətlə çalışırıq. Həmişə deyirəm, hər kəsin dənizi üfüqü qədərdir. Hər seçki dövründə böyük-böyük atıb-tutan, indi zəlzələ bölgəsinin yolunu belə xatırlaya bilməyənlərin üfüqü də ancaq sandıqları qədərdir. İşləri bitdikdə, təəssüf ki, millət ağıllarına da gəlmir. Kreslo davasından, gəlir mübarizəsindən başlarını belə qaldıra bilmirlər. Həqiqətən də acınacaqlı haldadırlar.

Qardaşlarım, bizim kompasımız heç vaxt müxalifət olmadı. Biz 23 ildir olduğu kimi, yenə də ancaq işimizə baxırıq. Onlar ümidsizlik yayacaq, biz isə zəlzələdən əziyyət çəkən qardaşlarımızın ümidi, yoldaşı, tale dostu olacağıq. Onlar "Bacarmayacaqsınız" deyəcək, biz şəhərlərimizi hamımız birlikdə daha güclü şəkildə ayağa qaldıracağıq. Onlar mane olacaq, biz ya bir yol tapıb, ya da bir yol açıb maneələrin öhdəsindən gələcəyik. Onlar didişərkən, dava edərkən, boş-boş işlərlə günlərini keçirərkən, biz Kahramanmaraşla birlikdə bütün Türkiyəyə sevgi ilə xidmət edəcəyik. Səksən altı milyon olaraq hamımız birlikdə güclü sabahlara addımlayacağıq.

Ümidvar olmağımız üçün əlimizdə bir çox səbəbimiz var. Baxın, bunun ən gözəl örnəyi Kahramanmaraşın "İstiqlalspor"udur. 6 fevraldan əvvəl həvəskar liqada mübarizə aparan bu idman klubumuz zəlzələdə 14 idmançısını itirib. Futbol Federasiyası tərəfindən üçüncü liqaya alınan klubumuz fəaliyyətinə bir il ara vermişdi. Keçən il futbolda ikinci liqaya, basketbolda birinci liqaya yüksəldi. Onları təbrik edir, uğurlarının davamlı olmasını diləyirəm. Oxşar uğur nümunələrinin zəlzələdən təsirlənən digər əyalətlərimizdə də olduğunu çox yaxşı bilirəm.



Qardaşlarım, sizlərlə Kahramanmaraşın övladı rəhmətlik Abdülrahim Karakoçun Xocalı qətliamından dərhal sonra Qarabağa həsr etdiyi duyğu dolu misralarla sağollaşmaq istəyirəm:

***Bəxtinə ağlayan Azəri qızı,***
***Sən Qarabağ deyirsən, mən Qarayazı.***
***Boşluqda çırpınır Türkün avazı,***
***Sanma ki, dərdlərin azı bizdədir,***
***Sizdəki yaranın özü bizdədir.***

***“Gəl, qardaş” deyirsən, gələcək yol yox,***
***Şəhidlər qəbrinə qoyacaq gül yox.***
***Çiləsiz saat yox, davasız il yox.***
***Güllələr sizdədir, ağrı bizdədir,***
***Sizdəki yaranın özü bizdədir.***

***Belə gəlib, belə getməz bu oyun,***
***Zalımları islah etməz bu oyun,***
***Umduqları kimi bitməz bu oyun.***
***Məzlumun çörəyi-duzu bizdədir.***
***Sizdəki yaranın özü bizdədir.***

**(ardı 4-cü səhifədə)**

# Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi







(əvvəli 3-cü səhifədə)

Bəli, mərhum şairimiz bundan otuz il əvvəl "Belə gəlib, belə getməz" demişdi. Rəbbim İlham qardaşımın Ali Baş Komandanlığı ilə tam otuzillik işğalın və zülmün ardından Qarabağın azadlığına qovuşduğunu bizlərə göstərdi. Üç həftə əvvəl 28 May - Müstəqillik Günü münasibətilə Laçında idik. Füzuli və Zəngilandan sonra Laçın Beynəlxalq Hava Limanını da İlham qardaşımla birlikdə istifadəyə verdik. İşğaldan azad edildikdən sonra Qarabağın hər tərəfində inkişaf və bərpa işləri sürətlə davam edir. Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması ilə, inşallah, bu işlər daha da sürətlənəcək.

Allah Azərbaycan ilə birliyimizi və diriliyimizi daimi etsin! Bu düşüncələrlə Can Azərbaycanın 15 İyun - Milli Qurtuluş Gününü ən səmimi diləklərimlə bir daha təbrik edirəm. Zəlzələ nəticəsində itirdiyimiz canları bir daha rəhmət və ehtiramla yad edir, İlham Əliyev qardaşımın şəxsində Azərbaycan xalqına həmrəyliyi, dəstəyi və duaları üçün ən səmimi təşəkkürlərimi bildirirəm.

Püşkləri atacağımız yeni mənzil və iş yerlərimizin bir daha xeyirli olmasını diləyir, mənzillərin inşasında əməyi keçən Ətraf Mühit Nazirliyimizi, Mənzil İnşaatı İdarəmizi, Fəlakət və Fövqəladə Halların İdarə Edilməsi Birliyimizi, xeyriyyəçilərimizi və bütün qardaşlarımı təbrik edirəm.

Hamınızı bir daha hörmətlə, sevgi ilə salamlayır, Allaha əmanət edirəm. Sağ olun, var olun, salamat qalın!

*

Daha sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoydular.

Zəlzələdən zərər görmüş bir sıra ailələrə yeni mənzillərin açarları təqdim olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsdilər.



Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsini gəzdilər, burada inşa edilmiş mənzillərə baxdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Azərbaycan və Türkiyənin dövlət başçılarını balacalar böyük sevinclə qarşıladılar.

Sonra prezidentlər məktəbin müəllim və şagirdlərinin ifasında "Çırpınırdı Qara dəniz" mahnısını dinlədilər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan məktəbin 4-cü sinfini bitirən şagirdlərə qiymət cədvəllərini təqdim etdilər. Dövlət başçıları tərəfindən şagirdlərə, həmçinin məktəbli çantaları hədiyyə olunub.

Üçmərtəbəli müasir məktəb və uşaq bağçası binasında 20 ibtidai sinif otağı, 3 uşaq bağçası otağı var. Burada təhsilə dəstək məqsədilə əlavə otaqlar da uşaqların ixtiyarına verilib. Binada zəruri tədris materialları ilə təchiz olunmuş fənn otaqları, musiqi, rəsm, əmək dərslərinin keçirilməsi üçün otaqlar, texnologiya, riyaziyyat və mühəndislik sahələrində bacarıqların təkmilləşdirilməsi üçün emalatxanalar yaradılıb.

*

Qeyd edək ki, 2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu.

Fəlakətin ilk günlərindən qardaş ölkəyə kömək üçün Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edildi. Axtarış-xilasetmə işlərində iştirak etməklə yanaşı, ölkəmizin həm dövlət qurumlarının, həm də qeyri-hökumət təşkilatlarının səyləri digər istiqamətlərə yönəldildi.

Dövlətimizin başçısının digər bir mühüm tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi.

Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirildi. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq.

2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışı olub.

"Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.



## Səfər başa çatdı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri iyunun 19-da başa çatıb.**

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yola saldı.

*AZƏRTAC*

# Azərbaycan – Türkiyə qardaşlığı üzərində yüksələn Kahramanmaraş

(əvvəli 1-ci səhifədə)

Kahramanmaraşda Azərbaycan tərəfindən salınan "Azərbaycan məhəlləsi" bu dəstəyin simvoluna çevrilib. Burada inşa edilən müasir yaşayış kompleksləri, məktəblər, uşaq bağçaları və sosial infrastruktur layihələri Azərbaycanın dost əlini uzatmaqla kifayətlənməyib, həm də bu torpaqlarda həyatın yenidən qurulmasına, dirçəldilməsinə töhfə verdiyini göstərdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan zəlzələdən sonrakı dövrdə dəfələrlə telefonla əlaqə saxlayıb, həmrəylik və dəstək mesajları mübadilə edib, dostluğun əbədiliyini bir daha vurğulayıblar. Dövlətimizin başçısının "Türkiyə bizim üçün sadəcə dost və tərəfdaş deyil, bizim qardaşımızdır" fikri hər iki xalqın duyğularının ifadəsi kimi diqqət çəkib.

Zəlzələnin ildönümündə Prezident İlham Əliyevin şəxsən Kahramanmaraşa səfər etməsi, yenidənqurma layihələrinin icrasını nəzərdən keçirməsi və yerli əhali ilə səmimi görüşləri Azərbaycan – Türkiyə qardaşlığının nə qədər real və dərin olduğunu bir daha sübuta yetirdi.

Bu yerdə bir məqamı xatırlatmaq istərdik. Belə ki, "Bir millət, iki dövlət" fəlsəfəsi, sadəcə, bir şüar deyil, bu gün hər iki ölkənin daxili və xarici siyasətində xüsusi önəm verilən əsas dəyərdir. Əgər dünən Azərbaycan torpaqlarının işğaldan azad olunması zamanı Türkiyə siyasi və mənəvi dəstəyi ilə Azərbaycan xalqının yanında oldusa, bu gün də Azərbaycan Kahramanmaraşın bərpası üçün əzmlə çalışır, bu yolda əlindən gələn səyi əsirgəmir.

Qardaş ölkənin təbii fəlakət nəticəsində ağır zərər görmüş bölgələrinə göstərilən bu dəstək, sadəcə, birgə tarixə deyil, ortaq gələcəyə də bir inam nümayişidir. Azərbaycanlı mühəndislər, inşaatçılar, humanitar təşkilatlar orada, sadəcə, binalar deyil, gələcəyin simvolunu inşa edirlər.

Azərbaycanın göstərdiyi bu dəstək beynəlxalq miqyasda da təqdirlə qarşılanıb, bir çox beynəlxalq qurumlar və KİV-lər tərəfindən bu həmrəylik nümunəvi addım kimi dəyərləndirilib. Ümumiyyətlə, bu hal təkcə bir yardım deyil, həm də səmimi insanlıq nümunəsi olaraq qiymətləndirilib. Azərbaycan xalqı zəlzələdə həyatını itirənlərin ailələri ilə birgə dərindən kədərlənib, yaralılara şəfa diləyib. Eyni zamanda, Türkiyə cəmiyyətində də Azərbaycanın bu qardaşlıq addımları unudulmayıb, Kahramanmaraşda evlərin üzərində "Azərbaycana təşəkkür edirik" pankartları asılıb. Bu, dövlətlərarası münasibətdən kənar, xalqlar arasında sarsılmaz bağların təcəssümü kimi dəyərləndirilib.

Yeri gəlmişkən, Azərbaycan – Türkiyə əlaqələri təkcə regional deyil, qlobal miqyasda da bir nümunəyə çevrilib. Bu münasibətlər hər zaman qarşılıqlı etimada, tarixi köklərə, ortaq mədəniyyətə və mənəvi dəyərlərə əsaslanıb, Kahramanmaraş zəlzələsi kimi ağır sınaqlardan keçərək daha da möhkəmlənib.

Azərbaycanın bu bölgənin bərpasına verdiyi töhfə bir daha göstərdi ki, nə qədər ağır olsa da, əgər ortada belə sarsılmaz dostluq və birlik varsa, həyat yenidən qurula bilər. Bu gün Kahramanmaraşda yüksələn binalar, təmir olunan məktəblər və sevincli uşaqların səsi bizə bir həqiqəti xatırladır: Azərbaycan – Türkiyə qardaşlığı əbədidir, sarsılmazdır və hər bir çətinlikdə daha da güclənir.

***

Azərbaycan – Türkiyə münasibətlərindən söhbət açarkən, ilk növbədə, bu iki ölkə arasında əlaqələrin böyük və şərəfli tarixinə nəzər salmaq istərdik. Hər zaman ortaq dil və din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu münasibətləri şərtləndirən amillər sırasında mühüm yer tutub. Azərbaycan və Türkiyə öz tarixlərinin ən mürəkkəb dövrlərində belə bir-birinə dəstək olub. 1918-ci ildə Nuru paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün taleyüklü bir məsələnin gerçəkləşməsinin nümayişinə çevrilib.



Xatırladaq ki, Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bugününü, eyni zamanda, perspektivlərini özündə parlaq ifadə edən ən mükəmməl formul kimi hazırda da qəbul olunur, bunun gələcək zamanlarda da mühüm önəm daşıyacağı heç bir şübhə doğurmur.

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi önəm verən Ümummilli liderimiz 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını gerçəkləşdirdi.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev də Türkiyə ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirib. Dövlətimizin başçısının 2004-cü il 13-15 aprel tarixində Türkiyəyə ilk rəsmi səfərindən sonra bu, ardıcıl xarakter daşıyıb.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra iki ölkə arasında sosial-iqtisadi baxımdan onilliklərə bərabər inkişaf yolu keçilib. Bu dövrdə əldə olunan iqtisadi uğurlar Azərbaycan – Türkiyə münasibətlərində özünü yaxından büruzə verib. Respublikamızın təşəbbüsü sayəsində Türkiyə ilə enerji daşıyıcılarının nəqli istiqamətində əməkdaşlıq dərinləşib. Xüsusən Bakı – Tbilisi – Ceyhan neft və Bakı – Tbilisi – Ərzurum qaz kəmərləri, eləcə də Bakı – Tbilisi – Qars dəmiryol xətti ilə bağlı əlaqələr bu iki türk dövlətinin strateji münasibətlərinə yeni məzmun gətirib, tərəflər arasındakı əməkdaşlığı regional, eyni zamanda, qlobal miqyasda möhkəmləndirib. TANAP layihəsi isə Azərbaycanla Türkiyə arasındakı sosial –iqtisadi və digər sahələrdə indiyədək mövcud olan qardaşlıq münasibətlərində əlavə dəstəyə çevrilib. Bütün bu layihələrin gerçəkləşməsində Azərbaycanın yerləşdiyi bölgədə apardığı müstəqil siyasət və Prezident İlham Əliyevin siyasi iradəsi mühüm rol oynayıb.

***

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı artıq tarixlə yoxlanmış, hadisələrlə möhkəmlənmiş bir birlikdir. Kahramanmaraşın bərpasında Azərbaycanın iştirakı bu sarsılmaz dostluğun möhkəm təməl daşlarından biridir və gələcək nəsillərə örnək olacaq bir qürur salnaməsidir.

Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "X" hesabında Kahramanmaraşda Azərbaycanın dəstəyi ilə inşa edilən "Azərbaycan məhəlləsi" barədə paylaşım edib: "Bu gün zəlzələ bölgəmizdə, Can Azərbaycanın dəstəyi ilə inşa edilən "Azərbaycan məhəlləsi"ndəki mənzillər də daxil olmaqla, ümumilikdə, 49 min 56 mənzil və iş yeri hüquq sahiblərinə təhvil verilir. Beləliklə, indiyədək təhvil verilən ümumi mənzil sayı 250 minə çatdırırıq",– paylaşımda vurğulanıb. Qeyd edək ki, məhəllənin açılışı dünən qardaş ölkədə reallaşıb.

Beləliklə, Kahramanmaraşda Azərbaycanın dəstəyi ilə inşa edilən "Azərbaycan məhəlləsi"ndə 49 min 56 mənzil və iş yeri inşa olunub. Bununla da zəlzələdən sonra təhvil verilən mənzillərin sayı 250 minə yüksəlib.

Türkiyənin Kahramanmaraş şəhərində salınan "Azərbaycan məhəlləsi"nin baş planı üzrə 7, 8, 11 və 12-ci kvartallarında tikinti işləri yekunlaşıb. Müasir memarlıq üslubunda inşa edilən evlər günəş panelləri ilə təchiz olunub. Bu binalarda, ümumilikdə, 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

*VB AYRAMOV*
*XQ*

# Ədalət Vəliyevin Vəhdət Partiyasının yeni sədri ilə görüşü

**İyunun 19-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Vəhdət Partiyasının VI Qurultayında yeni seçilmiş sədri Adəm İsmayıl oğlu Bakuvi ilə görüşüb.**

A.Bakuvini partiya sədri seçilməsi ilə əlaqədar təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə siyasi müstəvidə sağlam əməkdaşlıq mühitini təşviq edən siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib.

Görüş zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar, əldə olunmuş tarixi Qələbə, uğurla icra olunan Böyük Qayıdış proqramı, sağlam iqtidar-müxalifət münasibətlərinin dəstəklənməsinin vacibliyi, konstruktiv əməkdaşlıq əlaqələrinin inkişafı, Azərbaycana qarşı aparılan informasiya müharibəsində siyasi partiyaların fəal mövqe sərgiləməsinin əhəmiyyəti və digər bu kimi məsələlər barədə danışan Administrasiya rəsmisi dünyada müşahidə olunan münaqişələr və mürəkkəb proseslər fonunda milli həmrəyliyin qorunmasının müstəsna əhəmiyyətini xüsusi vurğulayıb.

Son dövrdə görülən məqsədyönlü işlər nəticəsində siyasi partiyaların ölkənin siyasi-ictimai həyatında artan rolunu qeyd edən A.Bakuvi sədrlik etdiyi partiya üçün milli maraqların və dövlətçilik mövqeyinin qorunmasının hər zaman prioritet təşkil edəcəyini vurğulayıb.

# Bakıda TDT Məhkəmə Şuraları sədrlərinin 3-cü iclası

**İyunun 19-da Bakıda Türk Dövlətləri Təşkilatı Məhkəmə Şuraları sədrlərinin 3-cü iclası təşkil olunub.**



Məhkəmə-Hüquq Şurasının və Ali Məhkəməsinin sədri İnam Kərimov iclasda çıxış edib. O, iclas çərçivəsində imzalanması nəzərdə tutulan TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi barədə məlumat verib: "Bu təşəbbüs ilk dəfə 2024-cü ilin may ayında İstanbulda keçirilən görüşdə irəli sürülüb və yüksək qiymətləndirilib. Hesab edirəm ki, Əsasnamənin imzalanması ilə tərəfdaş dövlətlər arasında məhkəmə-hüquq sahəsində çoxtərəfli və davamlı əməkdaşlığın hüquqi əsası yaradılacaq".

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev qeyd edib ki, təşkilat yaranandan indiyədək məhkəmə hakimiyyəti ilə bağlı davamlı uğurlar əldə olunub. "TDT Ədliyyə Nazirləri Şurasının 2-ci iclasının bu il Azərbaycanda təşkil olunması planlaşdırılır. Hakimlər Şurasının üzvlərindən ibarət alt İşçi Qrupu tərəfindən nizamnamənin hazırlanmasına dair qərar verilib. İşçi Qrupu nizamnamə üzərində işləyəndən sonra dünən bütün tərəflər nizamnaməyə razılığını ifadə edib. Bu gün xüsusi bir mərhələdir, çünki biz bu Əsasnaməni imzalayacağıq", - deyə o qeyd edib.

Qırğız Respublikasının Hakimlər Şurasının sədri Aida Seidakmatova bildirib ki, birgə tarix və dil xalqlarımızı birləşdirir: "Düşünürəm ki, hüquqi bazaya da nail olmaq lazımdır. TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi əməkdaşlıq üçün yeni üfüqlər açır, hüquqi təcrübələrin mübadiləsi üçün imkanlar yaradır. Bu gün tarixi hadisənin şahidiyik və qeyd edilən sənəd çox dərin köklərə malik olacaq".

Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının sədri vəzifəsini icra edən Fuzuli Aydoğdu bildirib ki, 2023-cü ilin noyabr ayında Azərbaycan və Özbəkistana edilən səfərlər məhkəmə sahəsində əməkdaşlıq prosesini yenidən canlandırmaq baxımından əhəmiyyətli mərhələ olub: "Ardınca 2024-cü ilin mayında İstanbulda ikinci böyük toplantımızı keçirdik. Bu gün artıq həmin səylərin bəhrəsini almaq üçün buradayıq. TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi institutlarımız arasında kommunikasiya və müzakirə platforması olacaq, ortaq problemlərə birgə həll yolları tapmaq üçün faydalı bir mexanizm rolunu oynayacaq", – deyə Aydoğdu vurğulayıb.

Özbəkistan Respublikasının Ali Məhkəmə Şurasının sədri Kholmumin Yodgorov çıxışında qeyd edib ki, TDT çərçivəsində dialoq və əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm addımlar atılıb: "Qeyd etmək istərdim ki, Özbəkistanın ali məhkəmə orqanları da qardaş ölkələrlə hüquq sahəsində qarşılıqlı bilik mübadiləsində iştirak ediblər. Eyni zamanda, bu çərçivədə uğurlu nəticələr əldə olunub. Mütəxəssislərdən ibarət qrupumuz Türkiyəyə səfər edib, onların məhkəmə sistemi ilə yaxından tanış olub. Bugünkü toplantı çərçivəsində imzalanacaq Əsasnamə də məhz bu əməkdaşlığın genişlənməsinə imkan yaradacaq", – deyə o vurğulayıb.

Qazaxıstanın Ali Məhkəmə Şurasının üzvü Yernar Begaliyev iclasda çıxış edərək bildirib ki, ölkəsində məhkəmə sahəsinə xüsusi diqqət yönəldilib. O qeyd edib ki, TDT arasında effektiv əməkdaşlığın mövcud olması çox yaxşı haldır: "Bu gün imzalanacaq Əsasnamə üzv dövlətlər arasında yeni əməkdaşlığın yaranmasına, eyni zamanda, məhkəmə sisteminin təşəkkül tapmasına təkan verəcək".

Şimali Kipr Türk Cümhuriyyətinin Ali Məhkəmə Şurasının və Ali Məhkəməsinin sədri Bertan Özerdağ çıxış edərək qeyd edib ki, Şimali Kipr Türk Respublikası belə tədbirlərə böyük əhəmiyyət verməkdədir. "Gələcəkdə bu əməkdaşlıqların davam edəcəyinə inanıram".

İclasda çıxışlardan sonra TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi imzalanıb.

***XQ***

# Əli Əsədov bp heyətini qəbul edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 19-da bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə bp arasında uzunmüddətli qarşılıqlı faydalı tərəfdaşlıqdan məmnunluq ifadə olunub. bp-nin Azərbaycanda həyata keçirdiyi layihələrin əhəmiyyəti vurğulanıb, gündəlikdə duran perspektivli layihələr nəzərdən keçirilib. Eyni zamanda, SOCAR ilə bp arasında mövcud əməkdaşlıq imkanları, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

M.Aukinkloss bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə yeni təyin olunan regional prezidenti Ciovanni Kristofolini Ə.Əsədova təqdim edib.

***XQ***

# Kanada təxliyə dəstəyinə görə Azərbaycana təşəkkür edib





**İyunun 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Kanadanın xarici işlər naziri Anita Anand arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı İsrail–İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub. Kanada xarici işlər naziri, həmçinin ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi istiqamətində Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür edib.

Ceyhun Bayramov öz növbəsində Kanada nazirini bu vəzifəyə təyinatı münasibətilə təbrik edib, ona uğurlar arzulayıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# "EUMA nağılı", yaxud Ritterin qarabasmaları

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, EUMA adlandırılan missiyanın rəhbərinin, yumşaq desək, heyrət doğuran fikirləri də var və mövzumuz əsasən bu barədədir. O deyib ki, rəhbərlik etdiyi təsisat 2023-cü ildə fəaliyyətə başlayanda, guya, Azərbaycan Silahlı Qüvvələri irəliləmiş və Ermənistanın bəzi ərazilərinə daxil olmuşdular. Görəsən, cənab Ritter nə danışdığının fərqindədir? Diplomat adlandırılan bu şəxs ölkəmizi, az qala, işğalçı adlandırdığını düşünürmü?

Deyəsən, cənab Ritter Ermənistanda olduğu müddətdə psixi travma alıb, nə dediyini dərk etməyəcək qədər anlaqsız vəziyyətə düşüb. O bilmirmi ki, iki Cənubi Qafqaz ölkəsi arasında sərhədlər qeyri-müəyyəndir? Bilməmiş olmaz. Hər ehtimala, cənab Ritterin nəzərinə çatdıraq ki, SSRİ-nin süqutundan sonra Azərbaycan və Ermənistan arasında sərhədlərin dəqiqləşməməsinin günahkarı ikincinin işğalçılıq yolu tutmasıdır.

Azərbaycan Ordusunun irəliləməsi məntiqinə gəldikdə, 44 günlük müharibədən sonra erməni silahlı birləşmələri ordumuzun mövqelərini atəşə tuturdular. Cavab tədbirlərimiz həmin atəş nöqtələrini neytrallaşdırmaq mahiyyəti daşıyırdı və ölkəmizin rəhbərliyi həmişə bəyan edib ki, Azərbaycan üçün təhdid nöqtələri, onların harada yerləşməsindən asılı olmayaraq, qanuni hədəfdir.

Yəni, yaxşı olar ki, Ritter hazırda rəsmi İrəvanın təxribata əl atmamasına görə şükür eləsin. Çünki belə bir durum yaşansa, təxribatçılarla yanaşı, onun heç nəyə yaramayan müşahidəçilərinin də izi-tozu qalmayacaq. O zaman EUMA şefinə təkcə psixoloji deyil, hətta travmatoloji yardım da lazım olacaq. Azərbaycan Ordusu irəliləyirmiş, EUMA imkan verməyibmiş. Görəsən, Ritter öz dediyinə inanırmı?

Nə isə, Ritter, eyni zamanda, bildirib ki, EUMA-nın məqsədi regionda sülh və sabitliyin qərarlaşmasına töhfə vermək, Azərbaycanla sərhəddə gərginliyin qarşısını almaqdır. Sual olunur: Qurum indiyədək hansı gərginliyin yaşanmasına yol verməyib? Qeyd edək ki, EUMA 2023-cü ilin əvvəlindən fəaliyyətdədir. Həmin vaxt Ermənistan Qarabağdakı separatçı rejimə silah-sursat daşıyırdı. Missiya bunun əleyhinə çıxıbmı? Bəlkə müşahidəçilər erməni tərəfinin hərəkətlərinin gərginlik doğuracağını bildiriblər? Suallarımız ritorikdir. Yəqin, Qarabağa silah daşınanda EUMA təmsilçiləri iqlimə öyrəşmək çətinlikləri yaşayır, ishal problemləri keçirirmişlər. Başqa nə düşünək? Düşünək ki, müşahidəçilər Avropanın korlar dərnəklərindən seçiliblər?

*

Ritter deyir ki, rəhbərlik etdiyi missiyanın üzvləri münaqişədən zərər çəkmiş sərhədyanı yaşayış məntəqələrini ziyarət edir, orada təhlükəsiz mühit yaratmaq və sərhədyanı icma sakinlərinə inam vermək istəyirlər. Azərbaycan dilində belə bir ifadə var: dəlinin yadına daş salmaq. Deyəsən, Ritter və komandasının işi bundan ibarət imiş. Bu komandanın təmsilçiləri, görəsən, nəyə inam aşılayıblar? Bəlkə təxribat toxumları səpiblər? Bu, daha ağlabatandır.

*

Amma EUMA rəhbərinin sərsəmləmələri bunlarla yekunlaşmır. Onun sözlərinə görə, missiya fəaliyyətə başlayanda Aİ Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və münaqişənin həlli prosesində vasitəçi rolunu üzərinə götürdü. Bəli, belə bir durum yaşanmışdı. Amma Ritter ardınca yenə cəfəngiyyata köklənir. O deyir ki, Aİ Şurasının rəhbəri Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və daha sonra Almaniya Kansleri Olaf Şolts dərhal sülh danışıqlarına dəstək üçün addımlar atdılar və hazırda Ermənistanla Azərbaycan arasında birbaşa dialoq aparılır.

Ritterin dediklərindən belə çıxdı ki, Bakı-İrəvan münasibətlərində müşahidə edilən pozitivlik, o cümlədən sülh müqaviləsinin bütün bəndlərinin razılaşdırılması birbaşa Aİ-nin səylərinin nəticəsidir. Deyəsən, missiyabaşı tam anlaqsız durumdadır. O qədər anlaqsız ki, Makronun farmazonluqlarını, Şoltsun üzdə tərəfsizliyini yaddan çıxarıb. Ola bilər, Ermənistanın sülh danışıqlarında hazırda nümayiş etdirdiyi müəyyən pozitivliyin Qərbin illüziya yaradan vədlərinin puça çıxmasından sonraya təsadüf etdiyini unudub. Amma unutmamalıdır. Özünə hörmət qoyan rəhbər şəxs belə məqamlara diqqət yetirməli, gülünc vəziyyətə düşməməlidir.

*

Əlqərəz, sərsəmləmələrini davam etdirən Ritter onu da bildirib ki, iki il əvvəl Ermənistanın Xarici İşlər Nazirliyi "missiyaçılardan" Xaçik kəndi ətrafında müşahidə aparmağı xahiş edib. Sən demə, azərbaycanlı hərbçilərin Naxçıvan istiqamətində "kəndlilərə atəş açması və kənd təsərrüfatı işlərinə maneə yaratması ilə bağlı məlumat" yayılmışdı. "Biz müşahidəyə başlayanda və gözlə görünən məsafədə dayandığımız zaman azərbaycanlı hərbçilərin Naxçıvandan atəş açdıqlarını gördük və atəş dayandı" kimi qarabasmalarını danışan Ritterə nə deyəsən? Yalançının…




*

Hə, onu deyirdik axı, yalançının evi yandı, heç kəs ona inanmadı. Yəqin, Ritter elə bilir, kimsə onun dilə gətirdiklərini həqiqət kimi qəbul edəcək. Eləcə də təsisat rəhbərinin "Ermənistana qonşu olan ölkələr artıq anlayırlar ki, Aİ-nin Ermənistandakı müşahidə missiyası sabitlik faktoru kimi çıxış edir" şəklindəki pafosuna heç kəs inanmayacaq. Görəsən, söhbət hansı qonşu ölkələrdən gedir? Ermənistanın özündə belə EUMA-nın ciddi qəbul edilmədiyi, onunla əlaqədar mütəmadi tənqidlərin səsləndiyi, qurumun məsxərə predmetinə çevrildiyi bir durumda Ritterin dedikləri çox gülməlidir.

…Ritterin sözlərinə görə, EUMA sərhəd boyunca genişmiqyaslı araşdırmalar aparır, faktları toplayır və müvafiq hesabatları Brüsselə - siyasi qərar qəbul edən şəxslərə göndərir ki, Aİ nümayəndələri razılaşdırılmış nəticələr çıxarsınlar, sərhəddəki vəziyyətə dair aydın təsəvvürə sahib olsunlar. "Bu hesabatlar tərəflərə təqdim olunmur", - deyən Ritter yenə ağ yalan danışmaqla məşğuldur. Çünki EUMA topladığı yarımçıq bilgiləri Ermənistan ordusuna ötürməkdən başqa bir iş görmür.

Ritter EUMA-nın müşahidə planı ilə bağlı Azərbaycanın birbaşa olmasa da, Aİ-nin Tbilisidə yerləşən Cənubi Qafqaz Nümayəndəliyi vasitəsilə məlumatlandırıldığını vurğulayıb. O deyib ki, iş aparmaq üçün icazə almır, cavab gözləmirlər. Əlbəttə, Azərbaycanın razılığı olmadan fəaliyyət göstərən qurum ölkəmizdən icazə almayacaq. Amma Ritter rahat ola bilər, əziyyət çəkməsinə ehtiyac yoxdur. Çünki missiyanın məlumatlarına ehtiyac duymuruq. Həm də ona görə ki, onun heç bir faydalı işi yoxdur. İş yoxdursa, ölkəmizin missiya üzvlərinin "bir il yarımda 5500-dən çox müşahidə" keçirdiyini bilməsində heç bir məna yükü ola bilməz. O ki qaldı, erməni tərəfinə yardıma, ondan yaxşı xəbərdarıq.

Missiya rəhbəri həmçinin deyib ki, Ermənistana gələndə EUMA-nın üzvləri ilə bağlı böyük gözləntilər vardı: "Bir çoxları düşünürdü ki, biz rus sülhməramlılarının yerinəyik, silahlı qüvvələrin nümayəndələriyik və Ermənistanı mümkün təcavüzdən qorumağa gəlmişik. İzah etməli olduq ki, yalnız mülki, hərbi olmayan bir missiyayıq və vəzifəmiz sərhədyanı əhalini qorumaq yox, rəhbərliyimizi məlumatlandırmaqdır".

Deyəsən, Ritter ağlını tam itirib. O, əvvəlcə insanlara yardımdan danışır, habelə, bildirir ki, yerli icmalarla görüşlər keçiriblər, onları sakitləşdiriblər, indi də rəhbərliyi məlumatlandırmağı prioritet saydığını vurğulayır. Görünür, bu şəxs işinin konkret nədən ibarət olmasından ya xəbərsizdir, ya da Avropanın psixi dispanserlərindəki boş qalmış yerlərdən birinə iddialıdır. Hər şey mümkündür.

Amma o qədər bədbin olmayaq. Çünki Ritter bildirir ki, müşahidəçilər yalnız binokl və kameralardan istifadə edirlər. Adam axır ki, düz əməlli söz dedi. Çünki EUMA üzvlərinin sayəsində Cənubi Qafqaz coğrafiyasında "Binokl diplomatiyası" ifadəsi yaranıb. Bu mənada qurumun iddia etdiyi yalnız bir yer var ki, o da "Qırmızı kitab"dır. Yəni, nəsli kəsilməkdə olan canlıların adlarının əksini tapdığı kitab.

*

Nəhayət, Ritter onu da vurğulayıb ki, fəaliyyətləri dövründə missiya haqqında müxtəlif fikirlər yayılıb: "Azərbaycan bizimlə əməkdaşlıq etmək istəmir. Hətta, bizi bölgədən çıxarmağı tələb edir və müşahidə missiyasını guya casus şəbəkəsi kimi göstərir. Lakin bütün bunların reallıqla heç bir əlaqəsi yoxdur. Biz gizli xidmət orqanı deyilik. Yeganə məqsədimiz Cənubi Qafqazda gərginliyi azaltmaq və Ermənistanı dəstəkləməkdir ki, danışıqlar prosesində daha güclü mövqeyə malik olsun. Bu proses atəş səsləri olmadan daha səmərəli keçə bilər".

Göründüyü kimi, beynəlmiləl zəngulələr vuran Ritter EUMA-nın əsas məqsədini açıqlayır – danışıqlar prosesində güclü tərəfə çevrilməsi üçün Ermənistanı dəstəkləmək. Necə deyərlər, dil çaşar, düzünü deyər. Ermənistanı güclü tərəfə çevirməyin hədəf seçildiyini vurğulayan Ritter bitərəflikdən dəm vurur. Belə bir durumda Azərbaycan niyə bu qurumla əməkdaşlıq etsin? Əməkdaşlıq etməlidir ki, Ermənistan daha da güclənsin? Bəlkə, ölkəmizin təmsilçiləri "Binokl diplomatiyası"nın "Qırmızı kitab"a namizədlərinə ordumuzun mövqeləri barədə də məlumat ötürsünlər?

Həqiqətən, cənab Ritterə kömək lazımdır. Çünki səhhəti heç yaxşı deyil. Aİ-də sırf insani nöqteyi-nəzərdən bu barədə düşünənlərin tapılması, missiyabaşının əvəzlənməsi mütləqdir. Axı o, xəstədir, müalicə almalıdır, amma Ermənistanda qalır, durumu daha da ağırlaşır. Allah bilir, gələn dəfə mikrafonlar önünə keçəndə nələrdən danışacaq, hansı yuxularını əyan edəcək. Belə olmaz! Qətiyyən olmaz! Təcili tədbir görülməli, Ritter Ermənistandan çıxarılıb Avropaya aparılmalıdır. Özü də birbaşa xəstəxanaya, daha doğrusu, psixi dispanserə yerləşdirilməlidir. Biz öz növbəmizdə ona Allahdan şəfa diləyirik.

***R.ƏVƏZ***
***XQ***

# Strateji geosiyasi rəqabət və hərbi qarşıdurmalar

III MƏQALƏ






## Regional və beynəlxalq təşkilatlarda fəaliyyət

Bu mövzuda II məqalədə ifadə edilən sonuncu tezisdə dövlətin beynəlxalq fəaliyyətinin parametrlərinin onun regional və qlobal geosiyai miqyaslara təsirinin başlıca müyyənedici faktoru olduğu vurğulanmışdı. Həmin parametrlər sırasında dövlətin yeni dünya düzəninin nüvəsini təşkil edə biləcək geosiyasi konfiqurasiyanın formalaşmasındakı rolu xüsusi yer tutmaqdadır. Enerji təhlükəsizliyi və milli təhlükəsizlik də daxil olmaqla çoxlu sayda parametr bu kateqoriyaya aiddir. Lakin XXI əsrin çağırışları kontekstində həmin aspektdə dövlətin regional və beynəlxalq təşkilatlarda fəaliyyəti önəmli hesab olunur.

Bunun başlıca səbəbi bütövlükdə müasir tarixi mərhələdə dövlətlər qrupunun ayrıca dövlətdən daha təsirli güc olması ilə bağlıdır. Ümumiyyətlə, siyasətin fəlsəfəsində gəlinən ortaq bir qənaət belədir: cəmiyyətlər və dövlətlər qrupu (yə ya onların yaratdıqları təşkilat, alyans və s.) qlobal geosiyasətdə daha təsirli rol oynayır. Cəmiyyətlərlə bağlı məsələnin geosiyasi aspekti ortaq mədəniyyətə malik olan toplumların daha artıq "yumşaq güc" potensialına malik olmaları ilə bağlıdır. Konkret olaraq, eyni mədəni identikliyə sahib toplumlar kollektiv fəaliyyələri ilə güclü təbliğat və təşviqat qaynağına çevrilə bilərlər.

Dövlətlər birliyi isə milli dövlətləri özündə birləşdirməklə vahid məqsəd qarşısına qoyduqda kifayət qədər güclü ola bilər. Müasir politologiyada dövlətlər qrupunun "unifikasiya olunmuş birliklər" və "xüsusiləşmiş birliklər" kimi iki aparıcı formasından bəhs edirlər. Avropa İttifaqı (Aİ) siyasi-iqtisadi təşkilat olaraq unifikasiya olunmuş kimi xarakterizə edilir. Təşkilata üzv olanlar fərqli dərəcədə siyasi təsirə malikdirlər.

Dövlətlərin "xüsusi birlik" forması isə daimi fəaliyyət göstərən katibliklərə malik olurlar ki, bu anlamda fəaliyyət üçün beynəlxalq meydan kimi qəbul edilirlər. Onlar beynəlxalq siyasi klubları da təmsil edə bilərlər. Həmin klubların beynəlxalq gündəmin əsas məsələləri üzrə ümumi mövqe formalaşdırmaları mümkündür. Onlarda vahid idarəetmə orqanı olmur. Həmin dövlətlər qrupu konkret istiqamət üzrə ixtisaslaşa, məsələn, hərbi-siyasi birliklər ola bilərlər (NATO, KTMT və s.). Sosial-iqtisadi birliklər (məsələn, Şanxay Əməkdaşlıq Təşkilatı və s.) formasında meydana gələr.

Vurğulanan hər iki dövlətlər qrupu birliyi institutlaşmış formalardır. Azərbaycan institutlaşmış regional və qlobal təşkilatlarda aktiv iştirak edir. Lakin onların heç biri hərbi-siyasi xarakterli deyildir. Məsələn, Qoşulmama Hərəkatı (QH), Türk Dövlətləri Təşkilatı (TDT), MDB, İslam Əməkdaşlıq Təşkilatı (İƏM), BMT və s. Lakin Azərbaycan nə NATO-nun, nə də KTMT-nin üzvüdür. Bakını bu təşkilatlara cəlb etmək də mümkün olmamışdır, çünki Azərbaycan rəhbərliyi tam müstəqil siyasət yeridir.

Bundan başqa, Azərbaycanın regional və qlobal miqyaslı təşkilatlarda sosial, siyasi, mədəni, ekoloji, iqtisadi, enerji kimi sferalarda fəaliyyətə üstünlük verməsi, onun mahiyyətcə humanitar xarakterli xarici siyasət yeritdiyini və həmin aspektdə də yeni dünya düzəninin formalaşmasında iştirak etdiyini göstərir. Bu zaman, Bakı əməkdaşlıqla təhlükəsizlik aspektlərini sıx əlaqələndirə bilir. Onun son zamanlar ən bariz nümunələrindən biri COP29-un Azərbaycanda təşkil edilməsidir. Bu tədbir dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizədə əsas yeri tutur və şübhəsiz ki, qlobal geosiyasi konfiqurasiyaya ciddi təsir edir.

Müasir mərhələdə dövlətlərin daha çox regional və qlobal miqyasda dövlətlər qrupunun tərkibində dünya siyasətinə təsir etdiyi faktını nəzərə alsaq, onda strateji rəqabətin çox mühüm bir özəlliyini də araşdırmaq olar.

Baxılan kontekstdə Azərbaycanın qlobal dünya düzəninə və təhlükəsizlik arxitekturasının formalaşmasına təsirlərini xarakterizə etsək, əsas tezisi belə formalaşdıra bilərik: rəsmi Bakı müasir dövrün "geosiyasi ruhu"na uyğun istiqamətdə fəal iştirak edir. Burada "geosiyasi ruh" Hegel mənasında "Zəmanənin ruhu" (Zeitqeist) kimi başa düşülür. Hegel öz dövründə aparıcı, müəyyənedici olan "dominant paradiqmanı", "fəaliyyət dəbini" Zeitqeist adlandırmışdı. Bu elə bir ümumi dəyər çərçivəsidir ki, konkret tarixi mərhələdə bəşəriyyət onun sərhədlərini aşa bilmir.

Bu anlayışı müasir geosiyasi mənzərəyə reduksiya etsək alarıq ki, XXI əsrdə dünyanın "geosiyasi ruhu" başlıca olaraq humanitar xarakterli faktorlarla müəyyən edilir. Onun mərkəzində isə yuxarıda vurğuladığımız kimi, insan kapitalı dayanır. Deməli, indiki tarixi dönəmdə uğurlu dövlət iqtisadi, sosial, mədəni, ideya, enerji kimi sferalarda fəal olanlar kateqoriyasına aiddirlər. Tədqiqatçıların gəldikləri qənaətə görə isə burada "resurslar" anlayışı əsas rol oynamalıdır. Məsələnin bu tərəfini konkretləşdirək.

## XXI əsrdə "resurs boşluqları"

Bəşəriyyətin malik olduğu resursların elə bir səviyyəsi yaxınlaşır ki, ayrı-ayrı sferalar üzrə istənilən resurs inkişafı problemlə üzləşir. Hər hansı resurs növü (maddi və ya mənəvi) klassik üsulla genişlənmək və inkişaf etmək imkanlarını faktiki olaraq itirir. Obrazlı desək, bəşəriyyət mövcud resurslardan istifadə üsullarından "ifrat doymuşdur". Ora əlavə edilən istənilən yeni faktor, sistemdə duruş gətirə bilmir, "qum kimi dağılır". Bununla qlobal miqyasda resurs boşluqları yaranır.

Bu cür vəziyyətdən dünya necə xilas ola bilər?

Alimlərin gəldikləri qənaətə görə, mövcud dünya düzəni modeli daxilində resurs boşluqlarını kompensasiya etmək mümkün deyildir. Adətən, ifrat doymuş sistemlərin yeni mərhələyə keçidi, ümumilikdə, əsas xarakteristikaları dəyişməyi tələb edir. Əgər söhbət geosiyasi nizamdan gedirsə, indi mövcud olan resurs boşluqlarını keyfiyyətcə fərqli parametrlərin üzərində yeni düzən sistemi qurmaqla (geosiyasi konfiqurasiyalar) aradan qaldırmaq olar. Bu məqamda müasir geosiyasi reallığın bir mühüm cəhəti ön sıraya çıxır.

## Resurs qaynaqlarının yeni sistemi

Məsələ onunla bağlıdır ki, ranqından asılı olmayaraq hansı dövlət resurs qaynaqlarını yeni dünya sisteminin formalaşmasına ciddi töhfələr verə biləcəksə, bütövlükdə dünya düzəninin mühüm aktorlarından biri olacaq. Yəni burada ənənəvi güclü və təsiredici dövlət olmaq başlıca şərt kimi öz qüvvəsini itirir. Yüksələn və inkişaf edən orta gücə malik dövlət yeni dünya düzənində vacib faktora çevrilə bilər. Başqa sözlə, "ərazicə kiçik bir ölkə güclü məmləkət ola bilər" (Heydər Əliyev)! Əlbəttə, bunun reallaşması mürəkkəb prosesdir. Lakin Azərbaycan təcrübəsi göstərir ki, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət sayəsində həmin nailiyyəti əldə etmək mümkündür. Bunun üçün bir neçə əsas şərt vardır ki, onlar ödənməlidir.

## Milli maraqlar və dövrün geosiyasi ruhu

Azərbaycan orta güc kimi nadir dövlətlərdəndir ki, milli maraqları ilə qlobal miqyasda dövrün geosiyasi ruhunu uyğunlaşdıra bilmişdir. İndi maddi və mənəvi resursların "istehsalı üsulu", onların "daşınma marşrutları" və "istifadəetmə şəbəkəsi" sinxronluq təşkil etməlidir. Bu o deməkdir ki, ölkənin enerji ehtiyatları, onların istismarı, nəqli marşrutları milli səviyyədə mənəvi, ideoloji, sosial, siyasi, mədəni birlik modeli ilə ziddiyyət təşkil etməməlidir. Praktikada həmin aspektlər bir-birini tamamlamalıdırlar. Azərbaycan enerji strategiyası ilə milli birlik və təşəbbüskarlıq faktorlarını uğurla sintez edə bilən dövlətdir. Cəmiyyətin daxili birlik modeli nəinki xarici siyasətdə, o cümlədən enerji strategiyasında əlverişli fəaliyyət arenası yaratmışdır, hətta dövlətlərin qarşılıqlı faydalılıq prinsipi üzrə birləşməsinə ciddi töhfə vermişdir.

## Regional və qlobal təhlükəsizliyə töhfələr

Müasir dünya düzəninin yaradılmasında təhlükəsizlik arxitekturasının yeri və rolu böyükdür. Hər hansı dövlət üçün bu, milli, regional və qlobal təhlükəsizlik modellərini uyğunlaşdırmağı tələb edir. Azərbaycanın xarici siyasətinin prioritetlərində bu məqam aparıcı yer tutur. Yeni tarixi mərhələ üçün müəyyən edilmiş həmin istiqamətlərdə bu məqam aydın duyulur. Onun təsdiqlərindən biri xarici siyasətdə multivektorluq, multilaterallıq, multikulturallıq və multiregionallıq aspektlərinin vahid məntiqi çərçivədə inkişaf etdirilməsidir.

Bundan başqa, Azərbaycanın regional və qlobal miqyaslarda təhlükəsizlik arxitekturasının formalaşmasında aktiv iştirakının zəruriliyinin vurğulanması mühüm hadisədir. Bir təşkilat olaraq isə Türk Dövlətləri Təşkilatının (TDT) gücləndirilməsi xarici siyasətimizin prioritetləri sırasına daxil edilmişdir.

Bununla yeni dünya düzəni və təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın iştirakının bütün ümumi konturları artıq məlumdur və onlar praktikada reallaşmaqdadır. Bu əsasda strateji rəqabətdə Azərbaycanın yeri və rolunun ümumi xüsusiyyətləri haqqında fikir yürütmək olar.

## Strateji rəqabət: yeni inkişaf kursuna doğru

Azərbaycanın strateji rəqabətdə iştirakının digər dövlətlərdən əsas fərqi rəqabəti yeni əməkdaşlıq və inkişaf platformasına transformasiya etmək kursunu götürməsi ilə bağlıdır. Xüsusilə enerji resurslarının istehsalı, nəqli və paylanması fəlsəfəsini Bakı elə müəyyən etmişdir ki, geniş bir geosiyasi məkanda əməkdaşlıqla təhlükəsizliyin vəhdəti mümkün omuşdur. Bunun nəticəsi həm xalqların qarşılıqlı surətdə faydalanması, həm də milli təhlükəsizliklərin yeni dünya düzəni kontekstində etibarlı təmini ilə bağlıdır.

Yeni tarixi mərhələdə Azərbaycan bu iki aspektin qarşılıqlı əlaqəsini inkişaf etdirmək üçün regionlararası miqyasda fəaliyyət səviyyəsinə yüksəlməkdədir. Burada təşkilat olaraq TDT-yə üstünlük verilir. Deməli, Azərbaycan atdığı addımlarla TDT-ni qlobal geosiyasətin ciddi aktorlarından birinə çevirir.

Azərbaycanın seçdiyi bu strateji kurs təsadüfi deyildir və onun əsasını Ulu öndərin "bir millət, iki dövlət" kəlamı təşkil edir. Yəni Azərbaycan rəhbərliyi düşünülmüş, son 300 ilin təcrübəsini və Azərbaycan dövlətçiliyinin ənənəsini nəzərə alaraq milli maraqlara uyğun olan kurs müəyyən etmişdir. Həmin kurs daxilində milli maraqlarla yanaşı, qlobal çağırışlar da ciddi surətdə nəzərə alınır.Yekunda bu, elə bir yeni geosiyasi faktordur ki, əməkdaşlıqla təhükəsizliyin təmini dünyanın yeni formatda nizam halına gəlməsinə əvəzsis töhfələr verəcəkdir. Onun əlamətləri artıq Cənubi Qafqazda, Mərkəzi Asiyada, Suriyada və Avropada özünü göstərir. Azərbaycan müstəqil dövlət və TDT-nin fəal üzvü kimi vurğulanan geosiyasi məkanlarda sözünü deyir. Enerji təhlükəsizliyi ilə milli təhlükəsizliklərin təmini aspektində isə aparıcı yerlərdən birini tutur.

Bununla müstəqil Azərbaycan Respublikası yeni orta güc kimi strateji rəqabəti dünyanın yeni düzəninin və təhlükəsizlik arxitekturasının formalaşmasına xidmət edən istiqamətə yönəldən dövlət kimi artıq özünü təsdiq etmiş və getdikcə təsir dairəsini genişləndirməkdədir. Bu prosesin dinamikası və ümumi ruhu göstərir ki, Azərbaycan strateji perspektivi olan dövlətdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Xəzər niyə geri çəkilir?

## *Azərbaycan və Rusiya bu problemi birgə araşdırır*

**Xəzər dənizi minillər boyu insan sivilizasiyasına xidmət edib. O, ticarətin yollarını birləşdirib, sahillərində şəhərlər və mədəniyyətlər formalaşdırıb. Amma bu gün Xəzər dənizi ciddi təhlükə qarşısındadır. Son illər dənizdə suyun səviyyəsi aşağı düşməkdədir. Bu, hövzə ölkələrinin ekologiyasına, iqtisadiyyatına və sosial həyatına birbaşa təsir göstərir. Proses təkcə coğrafi dəyişikliklərlə yekunlaşmır, həm də bəzi limanlar istifadəsiz hala düşür, bataqlıqlaşma, duzlaşma baş verir. Suyun səviyyəsi azaldıqca onun kimyəvi tərkibi də dəyişir. Nəticədə Xəzərin bioloji müxtəlifliyi təhlükə altına düşür. Azərbaycan üçün böyük iqtisadi əhəmiyyətə malik olan balıqçılıq sənayesi bundan zərər çəkir. Balıq ehtiyatlarının azalması həm gəlir mənbəyini azaldır, həm də sahilboyu ərazilərdə yaşayan əhalinin sosial rifahına mənfi təsir göstərir.**

Dayazlaşma region iqtisadiyyatının digər sahələrində də hiss olunur. Məsələn, neft və qaz yataqlarının yerləşdiyi bu hövzədə suyun səviyyəsinin enməsi dəniz platformalarının fəaliyyəti üçün texniki problemlər yaradır. Dayazlaşan sahələrdə hasilat işlərinin aparılması həm baha başa gəlir, həm də təhlükəsizlik risklərini artırır.

Limanlar da Xəzərin dayazlaşmasından zərər görür. Onların sabit fəaliyyətini təmin edən əsas amil Xəzərdə suyun səviyyəsidir. İri tonnajlı gəmilərin təhlükəsiz şəkildə limanlara yan alması çətinləşir, bəzən isə mümkünsüz olur. Artıq Qazaxıstandakı Aktau və Türkmənistandakı Türkmənbaşı limanları bu dəyişikliklərin real təsirini hiss etməyə başlayıblar. Aktau limanında suyun səviyyəsi 1,7 metr aşağı düşüb və azalmaqda davam edir. Limanda quru yük gəmiləri 600–1300 ton, neft tankerləri isə 2000–2500 ton az yüklənir. Gəmilərin yüklənməsinin azalması isə, şübhəsiz ki, dəniz nəqliyyatının rentabelliyinə təsir edir və yük axınlarının alternativ marşrutlara yönləndirilməsi zərurətini yaradır. Naviqasiyanın təhlükəsizliyini və gəmilərin tam yüklənməsini təmin etmək üçün isə dərinləşdirmə işləri aparılmalıdır.

*

Deməli, dayazlaşma limanların infrastrukturuna əlavə problem yaratdığı kimi, həm maliyyə itkisi, həm də ekoloji cəhətdən əlavə risklər doğurur. Xəzərin dibi ilə bağlı işlərin intensivləşməsi dəniz faunasına zərər vurur, suyun duzluluq və bulanıqlıq səviyyəsini dəyişdirir. Ümumiyyətlə, limanların dayazlaşması Xəzər regionunun nəqliyyat layihələrinə də təsir edir. Məsələn, Bakı–Tbilisi–Qars dəmir yolu və Orta Dəhliz kimi təşəbbüslərin əsas dayağı Xəzər üzərindən səmərəli yükdaşımalardır. Əgər limanlar dayazlaşma səbəbindən bu funksiyanı tam yerinə yetirə bilməzsə, regionun tranzit imkanları zəifləyə və ticarət axını alternativ marşrutlara yönələ bilər.

**Problemlə bağlı coğrafiya elmləri doktoru Səid Səfərov XQ-yə bildirdi ki,**



Xəzər dənizində suyun səviyyəsinin enməsi təkcə iqlim hadisəsi və ya təbiət dəyişkənliyi kimi qiymətləndirilə bilməz: "Bu, bütöv bir regionun gələcəyi, insanlarının rifahı və təbii sərvətlərin taleyi ilə birbaşa əlaqəlidir. Bu səbəbdən, məsələni yalnız elmi və texniki müstəvidə deyil, strateji və diplomatik baxımdan da nəzərdən keçirmək vacibdir. Xəzərsahili ölkələr birlikdə problemlərin həlinə çalışmalıdırlar".

Azərbaycan Xəzər dənizinin qorunması məsələsində fəal mövqe tutan ölkələrdən biridir. Prezident İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan bu sahədə əməkdaşlığın genişləndirilməsində maraqlıdır: "Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada, Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük. Çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır".

Təbiətin bu xəbərdarlığına səssiz qalmaq gələcəyin qapılarını bağlamaq deməkdir. Məhz buna görə Azərbaycan regional əməkdaşlığın gücləndirilməsini vacib sayır. Dövlətimizin başçısı Xəzər dənizinin bioloji su ehtiyatlarının qorunub saxlanması və onlardan səmərəli istifadə istiqamətində Xəzəryanı dövlətlərlə qarşılıqlı əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını vurğulayır. Bu istiqamətdə Bakının Moskva ilə əməkdaşlığı çox önəmlidir. Hər iki ölkənin müvafiq nazirlikləri və elmi qurumları bir araya gələrək dənizin səviyyəsinin dəyişməsi, dayazlaşmanın səbəbləri və bu prosesin sahilyanı zonalara təsirinin azaldılması istiqamətində elmi və institusional səviyyədə ciddi araşdırmalar aparır. Artıq işçi qrupu bir neçə iclas keçirilib, real planlar formalaşdırılıb.



Rusiya Prezidenti Vladimir Putin də bu təşəbbüsə tam dəstək verir və problemin "böyük, hətta qlobal xarakter daşıdığını" bildirir: "Rusiya və Azərbaycan hökumətləri Xəzər dənizinin dayazlaşması problemini həll etmək üçün birgə işləyirlər. Xəzərin dayazlaşması ilə bağlı məsələ Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qaldırılıb və mən dərhal onu dəstəkləmişəm. Çünki sözsüz ki, problem çox böyük, hətta deyərdim, qlobal xarakter daşıyır. Aral dənizi və digərləri ilə bağlı faciəvi nümunələr bizə məlumdur. Vaxtında razılaşdırılmış tədbirlər görülməlidir. Hökumətə lazımi tapşırıqlar verilib. Bilirəm ki, Rusiya hökuməti Azərbaycan hökuməti ilə birlikdə bu istiqamətdə çalışır və variantlar axtarılır. Burada başlıcası odur ki, heç bir sıçrayışsız, israrla, amma daimi əsasda fəaliyyət göstərək".

Vladimir Putin bildirib ki, Xəzərdə suyun səviyyəsinin azalmasının səbəblərini axtarmaq və geridönməz proseslərin qarşısını almaq üçün bütün tədbirləri görmək lazımdır. Rusiya liderinin Aral dənizini misal göstərməsi sadə müqayisə deyil, ekoloji faciənin yaddaşlarda saxlanması üçün ciddi xəbərdarlıqdır. Vaxtında tədbir görülmədikdə, iqlim dəyişikliyi və insan fəaliyyətinin bir zamanlar nəhəng su hövzəsini necə yox edə bildiyini tarix göstərib. Bu dəfə isə tarixdən dərs almaq lazımdır.

Bununla bağlı S.Səfərov onu da bildirdi ki, Xəzərin dayazlaşması təkcə sahil xətlərinin dəyişməsi və ya balıqçılığın zəifləməsi demək deyil: "Bu, nəqliyyat yollarının sıradan çıxması, ekosistemlərin dağılması, yerli iqlimlərin dəyişməsi, iqtisadi fəaliyyətin iflic olması deməkdir. Məhz bu səbəbdən Azərbaycan və Rusiya problemi birgə elmi tədqiqatlar və institusional səylərlə qarşılayır. Suyun səviyyəsinin dəyişmə səbəbləri araşdırılır, qabaqlayıcı addımlar müəyyən edilir, yeni texnoloji və mühəndislik yanaşmaları müzakirə olunur. Onu da qeyd edim ki, Azərbaycanın bu prosesdəki rolu, sadəcə, iştirakçı olmaqdan ibarət deyil. O, təşəbbüskar və təşkilatlandırıcı qüvvə rolunu oynayır. Coxtərəfli əməkdaşlıq çərçivəsində ekosistemin qorunmasına yönəlmiş layihələrdə, elmi tədqiqat proqramlarında və institusional dialoqlarda fəal mövqe sərgiləyir".

Beləliklə, Xəzərdə suyun səviyyəsi azalırsa, bu, yalnız onun dayazlaşması deyil, həm də həyatın geri çəkilməsidir. Azərbaycan bu problemə biganə qalmır. O, həm dövlət, həm də cəmiyyət olaraq problemə innovasiya ilə, əməkdaşlıqla, iradə və əzmlə cavab verir. Prezidentin dediyi kimi, əgər bu məsələyə enerji və əzmlə yanaşılmasa, hamımız əziyyət çəkəcəyik. Xəzərin sahilində dəyişən bir gələcək bizdən məsuliyyət, uzaqgörənlik və həmrəylik tələb edir. Azərbaycanın bu çağırışa cavabı artıq başlayıb.

Biz bu təbii irsi gələcək nəsillərə təmiz, sağlam və tükənməz şəkildə ötürmək naminə həm milli, həm də beynəlxalq səviyyədə ardıcıl və məqsədyönlü fəaliyyət göstərmək əzmindəyik.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakı: Yeni qlobal moderator!

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın uzun illər formalaşdırdığı xarici siyasət kursu enerji təhlükəsizliyi, regional münaqişələrin həlli və strateji nəqliyyat dəhlizləri üzərində qurulmuşdu. Bu istiqamətlər Bakının beynəlxalq arenadakı sabit və proqnozlaşdırılan tərəfdaş obrazını möhkəmləndirdi. Lakin dünya dəyişir və dəyişən dünyada diplomatiyanın dili də çevrilir. Azərbaycan bu dəyişimi izləyən yox, yön verən aktora çevrilir.

İqlim diplomatiyasının ənənəvi xəttə inteqrasiyası təsadüfi proses deyil. Məhz qlobal çağırışların regional güc anlayışını yenidən tərif etdiyi bir dövrdə baş verir. Artıq enerji yalnız boru kəmərləri ilə ötürülən resurs deyil, həm də etik məsuliyyət, texnoloji transformasiya və humanitar məqsədlər üçün istifadə edilən yumşaq güc vasitəsidir. Azərbaycan isə bu keçidi diplomatik identikliyini yenidən dizayn edən əsas fəlsəfi və siyasi xətt kimi qəbul edir.

COP29-un prezidenti Muxtar Babayevin çıxışlarında Bakının bu yeni yanaşmanın arxasında duran siyasi iradəsi açıq şəkildə nümayiş etdirildi. BƏƏ və İtaliya rəsmilərinin Bonn görüşündə səsləndirdikləri fikirlər Azərbaycanın təşəbbüskar rolunun artıq qeyri-rəsmi razılaşmalardan çıxaraq, beynəlxalq təsdiq mərhələsinə keçdiyini göstərdi. Bu, diplomatiyada çox önəmli bir keçiddir: təşəbbüs təkcə ideya mərhələsində deyil, artıq beynəlxalq aktorlar tərəfindən qəbul olunan əməkdaşlıq platformasına çevrilib. Bakı İqlim və Sülh Mərkəzi (Bakı Hub) bu prosesin konkret strukturlaşmış ifadəsidir. Əgər bir vaxtlar Bakı enerji sammitlərinin, boru kəməri protokollarının görüş yeri idisə, bu gün etik gündəmin mərkəzi olmaq iddiasını ortaya qoyur. Bakının iddiası isə təkcə Qafqazla məhdudlaşmır.

Xüsusi tapşırıqlar üzrə səfir Elşad İskəndərovun Çad, Qvineya-Bisau və İraqda planlaşdırılan iqlim və sülh layihələri barədə açıqlamaları Azərbaycan diplomatiyasının coğrafiyasının cəsarətli şəkildə genişləndiyini ortaya qoydu. Məsələ təkcə yeni regionlara çıxmaqda deyil. Əsas məqam ondan ibarətdir ki, bu regionlar – xüsusilə Afrika və Yaxın Şərq – hazırda beynəlxalq siyasətin sabitlik üçün ən həssas nöqtələridir. Azərbaycanın orada görün-




məsi yumşaq güc vasitəsilə geosiyasi varlıq yaratmaq strategiyasıdır. Azərbaycan artıq yalnız regional layihələrin tərəfdaşı deyil, qlobal Cənubun etibarlı diplomatik əlaqələndiricisinə çevrilmək yolundadır. Dəyişimin kökündə isə yeni konsept dayanır: Diplomatiya yalnız maraqların yox, həm də dəyərlərin mübadiləsidir. Sözügedən mübadilədə Azərbaycan iqlim ədaləti, humanitar təhlükəsizlik və dayanıqlı inkişaf kimi prinsiplərlə çıxış edir.

Daha maraqlısı isə odur ki, bu təşəbbüslər Bakının İslam dünyası ilə həmrəylik istiqamətində yeni körpülər yaratmaq cəhdlərinə də uyğun gəlir. İqlimlə bağlı maliyyə institutlarının – məsələn, İslam İnkişaf Bankı və Afrika İnkişaf Bankının – bu layihələrə qoşulması Azərbaycanı ideya daşıyıcısı, dəyər təklif edən tərəfdaş kimi tanıdır. Bu addım klassik diplomatiyanın periferiyasından çıxıb beynəlxalq siyasətin mərkəzinə doğru strateji sıçrayışdır. Bakı artıq diplomatik gündəmlərin müəllifi olmaq ambisiyasını sərgiləyir.

*

Azərbaycanın xarici siyasətində yaşanan ən diqqətəlayiq transformasiyalardan biri "resurs ixracatçısı" imicindən "dəyərlər ixrac edən" aktora çevrilmək prosesidir. Həyata keçirilən addım isə təkcə enerji təhlükəsizliyi və iqtisadi şaxələnmə ilə izah olunmur. Burada diplomatik fəlsəfənin köklü transformasiyası baş verir. Neft əsrinin hökmranlıq etdiyi dövrdə Bakı əsasən enerji təminatçısı kimi qəbul olunurdu. Bu rol Azərbaycanın iqtisadi inkişafını və beynəlxalq əlaqələrini qurmaq baxımından effektiv idi. Amma bu gün yeni dövrün astanasındayıq: İqlim çağırışları və yaşıl keçid əsri.

Azərbaycanın karbon neytrallığına yönəlmiş çağırışları və ekoloji gündəmi artıq təkcə daxili siyasətin deyil, xarici siyasətin təməl sütunlarından birinə çevrilir. Rəsmi Bakının bu addımı geosiyasi və etik məsuliyyət formatında təqdim olunur. Neftin diktə etdiyi reallıqlar bir vaxtlar Azərbaycanı iqtisadi cəlbediciliyin mərkəzinə çevirmişdisə, bu gün Bakı iqlim ədalətinin



tərəfdarı və təşəbbüskarı kimi çıxış edir. Və bu dəyişiklik təkcə ritorikada deyil, konkret diplomatik davranışlarda öz əksini tapır.

"Yaşıl diplomatiya" anlayışı artıq Azərbaycanın beynəlxalq səviyyədə formalaşdırdığı yumşaq güc modelinin əsas kodlarından biridir. COP29-un Azərbaycanda keçirilməsi və Bakı Hub-un formalaşması diplomatik mövqeyin yenidən yazılması, rolun dəyişdirilməsi və dəyərlərə əsaslanan liderliyin qurulması deməkdir. Əgər Bakı bir zamanlar enerji diplomatiyasının oyunçusu idisə, bu gün qlobal etik təşəbbüslərin moderatorudur.

Dönüşüm isə Azərbaycanın sadəcə "regional güc" olma iddiasından daha irəli getdiyini göstərir. Bakı artıq yalnız öz maraqlarını qorumağa çalışan ölkə deyil. O, qlobal fayda yaradan və dəyərlər təklif edən aktora çevrilmək niyyətindədir. Çağdaş beynəlxalq münasibətlər sistemində Bakının bu addımı yüksələn trendlə üstüstə düşən strateji mövqe formasıdır.

*

Bonn şəhərində keçirilən tədbirdə ortaya çıxan reaksiya və iştirakçı qurumların açıqlamaları Azərbaycanın iqlim təşəbbüslərinin sadəcə niyyət bəyanatı olmadığını təsdiqlədi. UNEP, UNDP, Yaşıl İqlim Fondu, İslam İnkişaf Bankı, Afrika İnkişaf Bankı və digər nüfuzlu qurumlar Bakının yaratdığı platformaya siyasi və maliyyə dəstəyi ifadə etməklə, bu təşəbbüsün mərkəzləşdirilmiş əməkdaşlıq modelinə çevrilə biləcəyini göstərdilər.

Forumda diqqətçəkən məqamlardan biri bu tədbirdə iqlim məsələlərinin artıq klassik təhlükəsizlik gündəmi ilə birgə müzakirə olunması oldu. Su qıtlığı, torpaq deqradasiyası, ərzaq böhranı və iqlim səbəbli miqrasiyalar artıq beynəlxalq sabitliyi təhdid edən başlıca amillər kimi qəbul edilir ki, bu da geosiyasi sabitlik və beynəlxalq təhlükəsizlik konsepsiyalarının köklü şəkildə yenidən yazılmasıdır.

Azərbaycanın bu çağırışlara cavab olaraq verdiyi reaksiya isə məhz yeni dünya nizamının tələblərinə uyğun yanaşmadır. Əgər əvvəlki dövrlərdə təhlükəsizlik anlayışı hərbi balans, silahlanma və münaqişə zonasına nəzarət üzərində qurulurdusa, bu gün iqlim diplomatiyası vasitəsilə sabitlik yaratmaq əsas mexanizm kimi qəbul olunur.

Və burada Azərbaycanın təşəbbüsləri bir daha öz unikal mövqeyini sübut edir: Bakı Hub bir tərəfdən az inkişaf etmiş ölkələr üçün dəstək platformasıdırsa, digər tərəfdən beynəlxalq təhlükəsizlik diskursuna yeni paradiqma daxil edən konseptual mərkəz kimi çıxış edir.

Nəticə olaraq qeyd etmək istərdik ki, Azərbaycanın iqlim və sülh diplomatiyasında atdığı strateji addımlar artıq klassik diplomatiya çərçivəsinə sığmır. Burada söhbət, sadəcə, danışıqlardan, təşəbbüslərin dəstəklənməsindən və ya yeni layihələrin maliyyələşdirilməsindən getmir. "Bakı yeni qlobal moderatordur?" sualının cavabı aydın görünür: Bakı artıq qlobal gündəmi müəyyən edən, diplomatik kartların yenidən paylandığı mərkəzə çevrilib.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə***
***fəlsəfə doktoru***

# Paşinyanın Türkiyə səfəri – Ermənistan üçün fayda parametri

## *Nikolun "ürəyi" dözəcəkmi?*

**Ermənistanın baş naziri Nikol Paşinyanın qardaş Türkiyəyə bu günkü səfəri regionun başlıca mövzusudur. Məsələ iki gün əvvəldən, yəni səfərin gerçəkləşəcəyinə dair xəbərin yayılmasından dərhal sonra aktuallaşıb. Ermənistanda hökumətə yaxın dairələr Nikolun Türkiyəyə yollanmasını mühüm hadisə kimi dəyərləndirirlər. Onlar Paşinyanla Prezident Rəcəb Tayyib Ərdoğanın görüşünü "tarixi an", "dönüş nöqtəsi" adlandırır, nikbin mesajlar verirlər. Amma başqa məqamlar da var. Onlardan yazımızın ikinci bölümündə söz açacaq, diqqətə çatdıracağımız mətləblər fonunda Paşinyanın Türkiyəyə səfərinin faydasının nədən asılı olduğunu vurğulayacağıq.**

**

Əlbəttə, diqqətlər Azərbaycan–Ermənistan sülh prosesinə yönəlib və Ankaranın prosesdəki vasitəçilik missiyası ön plana çıxıb və bunu təbii saymaq mümkündür. Bakı ilə İrəvan arasında vasitəçilik missiyası tarixə qovuşsa da, Türkiyənin mövcud istiqamətdə söz sahibi olması üçün mənəvi haqqının unutmamalıyıq. Eyni zamanda ona görə ki, Türkiyə–Ermənistan normallaşması Azərbaycan–Ermənistan münasibətlərinin rəvanlığından asılıdır.

Bəli, Türkiyə Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsində söz sahibinə çevrilə bilər. Amma Bakının sülh sazişinin imzalanması üçün irəli sürdüyü prinsipial şərtlər var ki, Ankaranın həmin şərtlərlə əlaqədar ölkəmizi yumşalmaya razı salacağı ehtimal edilmir. Çünki başlıca vəzifə sülhün əldə edilməsi və böyük ölçüdə Cənubi Qafqazda barış və əməkdaşlıq mühitinin qərarlaşmasıdır. Həmin mühit üçün isə rəsmi Bakının müəyyənləşdirdiyi baxış - Ermənistan konstitusiyasının işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinin istinad motivinin aradan qalxması və ATƏT-in Minsk qrupunun ləğvi müstəsna təminatdır. Rəsmi İrəvan şərtlərimizi yerinə yetirməlidir, bunun qaçılmazlığını anlamalıdır. Anlamalıdır ki, sülh mühiti özünə dayanıqlılıq immunitеti qazansın. Heç şübhəsiz, Türkiyənin də məsələyə baxışı budur. Həm də ona görə ki, ölkəmizin şərtlərinin yerinə yetirilməsi Ermənistanın ərazi iddiasından daşınmasının təsdiqidir. O iddiadan ki, onun Türkiyəyə qarşı da yönəldiyini yaxşı bilirik.

Vurğuladığımız məqamlar səbəbindən Türkiyənin Azərbaycanı yox, daha çox Ermənistanı barışa cəlb etmək niyyətlərindən söz aça bilərik. Nəzərə alaq ki, torpaqları işğal olunan Ermənistan yox, Azərbaycan olub. İşğalçılığın isə bədəli mütləq olmalıdır. Digər tərəfdən, Azərbaycan rəhbərliyinin müstəsna önəm verdiyi, Ermənistanın reallaşmasına imkan tanımadığı daha bir prinsipial məsələ var. Söhbət Naxçıvana



maneəsiz yoldan gedir. Yada salaq ki, rəsmi İrəvan Naxçıvana yolun heç bir gömrük və sərhəd nəzarəti olmadan fəaliyyət göstərməsini özünün ərazi bütövlüyünə və suverenliyinə təhdid kimi qiymətləndirir.

Əlbəttə, Naxçıvana yolun böyük mənada Zəngəzur dəhlizi, daha böyük anlamda isə Orta Dəhliz mahiyyəti daşıdığından xəbərdarıq. Türkiyənin məsələdə son dərəcə maraqlı olmasından da həmçinin. Ankarada Azərbaycanın Naxçıvana tam maneəsiz yolla bağlı həm tarixi, həm də 44 günlük müharibə qalibi kimi haqqının olduğunu da gözəl anlayırlar.

Müharibə qalibi məsələni əbəs yerə gündəmə gətirmədik. Çünki 44 günlük savaşın Ermənistan üçün məğlubiyyət kasuzsunu vurğulayan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat var və həmin sənəddə baş nazir N.Paşinyan Naxçıvana sərbəst və maneəsiz yol üçün təminat verib. Qalır, Nikolun öz imzasına hörmətlə yanaşması.

Naxçıvana maneəsiz yol Ermənistan üçün, belə demək mümkünsə, çəmbərin daralma məhsuludur. Axı Azərbaycan hələ 2015-ci ildə, yəni 44 günlük müharibədən beş il əvvəl regional kommunikasiyaların açılması çağırışını səsləndirmişdi. O zaman ölkəmizin tək şərti işğalın dayandırılması, Ermənistan qoşunlarının ölkəmizin ərazisindən çıxması idi. Bunun müqabilində Ermənistan hazırda Paşinyanın irəli sürdüyü "Dünyanın kəsişməsi" layihəsini gerçəkləşdirə, Azərbaycanla bərabər regional kommunikasiya xabına çevrilə bilərdi. Lakin rəsmi İrəvan təcavüzün davamında israrlı oldu. Belə bir yarıtmaz mövqe tutan dövlət əlbəttə ki, malik olduğu imkanları da qurban vermiş sayılır. Çünki siyasətin sərt sifəti var.

Deməli, indiki durumda Ermənistan rəhbərliyi Naxçıvana yol xüsusunda ölkənin ərazi bütövlüyü və suverenliyi klişesindən uzaq durmalıdır. Çünki Ermənistanın beynəlxalq hüquqla ona məxsus olduğu bildirilən ərazilərə sahiblik dərəcəsini üçtərəfli Bəyanat, geniş anlamda isə 44 günlük müharibə müəyyənləşdirir və müəyyənləşdirmədir. Siyasətin sərt sifəti budur və mövcud məqam da Türkiyədə ciddi dərk edilir.

*

Bütün bunlar öz yerində, amma eyni zamanda onu da bildirək ki, Ermənistanda kı müxaliflər Paşinyanın Türkiyəyə səfərini xəyanət və satqınlıq olaraq qələmə verir və bildirirlər ki, baş nazir ölkəsinin maraq və mənafelərini Ankaraya təslim edəcək. Səfərlə bağlı erməni gündəmini məşğul edən məqamlardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin eyni anda Türkiyədə olmasıdır.

Bəli, Ermənistandakı revanşist kəsim bu iddiadadır ki, Ankara və Bakı birlikdə İrəvanı məqbul olmayan şərtlərə razı salacaq. Məsələn, ölkənin sabiq xarici işlər naziri Vardan Oskanyan bildirib ki, Nikolun Türkiyəyə yollanması diplomatik uğur deyil, 2018-ci ildən başlayan və indi gerdönməz ola biləcək yeddi illik milli alçaldılmanın kulminasiyasıdır. Onun sözlərinə görə, Paşinyan Ankarada hakimiyyətini qorumaq üçün indulgensiya (günahdan azadolma) axtarışındadır və onun ödəməyə hazır olduğu bədəl erməni xalqının ləyaqəti və gələcəyidir.

Oskanyanı o anlamda haqlı saymaq olar ki, təkcə Paşinyan deyil, ümumən erməni varlığı Azərbaycan xalqı qarşısındakı günahlarından qurtulmalıdır və əvvəldə də vurğuladıq ki, bu qurtulma Ermənistan üçün nəyinsə bahasına başa gəlməlidir. Proses erməni siyasi dairələrində necə qiymətləndiriləcək, məsələnin nə Türkiyəyə, nə də Azərbaycana dəxli var. Beynəlxalq aləm də, böyük ölçüdə, "erməni kartı"nın istifadə müddətinin bitdiyini anlayır. Hazırda Paşinyanın qarşısında dayanan başlıca vəzifə Ermənistanın özünün bir dövlət kimi mövcudiyyət müddətinin bitməsinə imkan verməməkdir. Nikol Ankaraya bu məqsədlə yollanıbsa, səfəri pozitiv saymaq mümkündür.

Əlqərəz, Oskanyan həmçinin bildirir ki, böyük ehtimalla, Türkiyənin vasitəçiliyi ilə Azərbaycan Ermənistanla sülh sazişini imzalayacaq. "...lakin bunun müqabilində Paşinyanın Azərbaycanın tələblərini sonrakı mərhələdə yerinə yetirəcəyinə dair şifahi və ya gizli razılaşma olacaq. Alternativ olaraq, Azərbaycan sənədi imzalaya, amma onu ratifikasiyasını Paşinyanın bu şərtləri yerinə yetirməsinə qədər təxirə sala bilər – necə ki, 15 il əvvəl "futbol diplomatiyası" zamanı Türkiyə etmişdi", - deyən keçmiş XİN rəhbəri fikirlərini, necə deyərlər, ən pis ssenari üzərində qurur. Daha doğrusu, öz aləmində, ən pis ssenaridə daha böyük pislik axtarır. Yəni, o demək istəyir ki, Ankarada Paşinyana müəyyən jest edilə bilər, ancaq bu jest aldadıcıdır. Onun "Azərbaycanla bağlanacaq bu "sülh müqaviləsi" qarşılıqlı hörmət, ədalət və bərabərhüquqlu danışıqlar nəticəsində formalaşmayıb. Bu sənəd təzyiq, işğal və hərbi cinayətlər nəticəsində yaranıb" şəklində dillənməsi də, "sənəddə Bakı həbsxanalarında saxlanılan erməni əsirlərindən bəhs olunmur. "Artsax"dan zorla köçürülmüş ermənilərin geri dönüşü üçün heç bir yol təklif olunmur. Azərbaycanın Ermənistanın suveren ərazisindəki davam edən hərbi mövcudluğuna dair heç bir tələb irəli sürülmür" kimi fikirlər səsləndirməsi də Ankarada Ermənistanı, guya, böyük siyasi fəlakətin gözlədiyinə dair təbliğatın elementləridir. Hiss olunur ki, Oskanyan nəyin bahasına olursa-olsun, Paşinyanın Türkiyə səfərini qaralamağa köklənib. Əlbəttə, sabiq XİN rəhbəri bununla kifayətlənmir, həmçinin, gündəmə gətirdiyi fikirlərlə Ermənistandakı revanşist və şovinist kəsimi daha da körükləmək yolu tutur. Məsələn: "Təklif olunan sənəd saxta bir illüziyadır – zahirən irəliləyiş, əslində təslimçiliyin rəsmiləşdirilməsidir. Məqsəd Paşinyan hökumətinin siyasi maraqlarına xidmət etməkdir, Ermənistanın milli maraqlarına yox. Azərbaycan və onun müttəfiqləri üçün isə bu, qələbə anıdır – aqressiyanın nəticələrini heç bir güzəşt olmadan rəsmiləşdirmək imkanıdır".

Oskanyanın sərsəmləmələrinin digər aspektləri də var. Ancaq onun saxta vətənpərvətliyə və ucuz populizmə əsaslanmış baxışlarının hər birinə diqqət yetirməyi lazım bilmirik. Aydındır ki, keçmiş XİN rəhbəri Ermənistandakı revanşist və şovinist kəsimin "parlaq" təmsilçisi kimi sülh prosesi ilə bağlı istənilən pozitiv məqama qarşı çıxmağı ehkamlaşdırıb. Paşinyanın Türkiyəyə səfərinə daxildəki etirazçıların bildirdikləri də aşağı-yuxarı məlumdur. Yəni, onlar eynilə Oskanyan kimi ağızlarına nə gəldi danışır, birbaşa inkarçı mövqe tuturlar.

Başlıca məqam Okanyan və onun kimilərinə xaricdən göstərilən dəstəkdir. Məsələn, politoloq Andrey Areşev Rusiya Strateji Mədəniyyət Fondunun saytında dərc olunan məqaləsində yazıb ki, Azərbaycanın və Türkiyənin tələbləri kifayət qədər genişdir və bu tələblər Rusiyanın Ermənistn energetika sektorundakı mövqelərini sarsıtmaq gücündədir. Politoloqun bu fikrindən sonra onun mövzunu tanınmış erməni əsilli rusiyalı iş adamı, "Taşir" qrupunun rəhbəri Samvel Karapetyanın İrəvanda saxlanılmasının üzərinə gətirməsi təəccüblü sayılmamalıdır: "Uzun illər əvvəl Karapetyan, görünüşcə çıxılmaz zərər içində olan "Ermənistan Elektrik Şəbəkələri" şirkətini satın almışdı. İndi isə bu şirkət Nikol Paşinyan hökumətinin və onun "yeni" (əslində, yaxşı tanınmış) tərəfdaşlarının ciddi diqqət mərkəzinə çevrilib".

Ümumiləşdirmə apararaq təkrarlayaq ki, Ermənistanda hakim komanda Paşinyanın Ankaraya yollanmasını sırf tarixi ilk nöqteyi-nəzərdən əsaslandırır və bunun müsbət ovqatına köklənir. Baş nazirin Türkiyəyə səfərinin pozitiv qiymətləndirilməsi fonunda bu səfərlə bağlı neqativ ritorikanın isə Oskanyanın və Areşevin timsalında həm siyasi, həm də iqtisadi "əsaslandırmasının" olduğunu da gördük. Əlbəttə, mülahizələrin əksinə olaraq, Ankarada Bakı-İrəvan sülhünün ərsəyə gələcəyini ehtimal etmək mümkünsüzdür. Hər bir halda, müəyyən müsbət nəticələrə ümid etmək olar.

Sonda bu ümid fonunda əvvəldə üzərində dayandığımız məqama qayıdaq. Söhbət Paşinyanın Ankaraya səfərinin Ermənistan üçün faydalarından gedir. Əslində, faydanın prinsiplərini, onun hansı şərtlərlə mümkünlüyünü vurğuladıq. Onu da vurğulayaq ki, fayda Paşinyan hakimiyyətinin həm Türkiyəyə, həm də Azərbaycana münasibətdə səmimi mövqe nümayişindən, daxildəki başıpozuqlarla mübarizədə qətiyyətli mövqe tutmasından asılıdır. Yəni, belə yanaşma olacaqsa, Ermənistan üçün fayda mümkündür. Əks halda, bu adlı dövlət, obrazlı desək, onsuz da ölüdür, sadəcə özünə demirlər ki, ürəyi dayanmasın. Heç şübhəsiz, Ankarada Paşinyana bu da deyiləcək. Qalır, Nikolun ürəyinin dözməyi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# 5 aylıq yatırım – 6 milyard 695 milyon manat

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-may aylarında əsas kapitala 6 milyard 695 milyon manat məbləğində investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 21,9 faiz azalıb, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 11,7 faiz çoxalıb.**



İstifadə olunan investisiyanın 3 milyard 363 milyon manatı və ya 50,2 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 239 milyon manatı (33,4 faizi) xidmət sahələrinə, 1 milyard 95 milyon manatı (16,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilən investisiyaların 5 milyard 49 milyon manatı və ya 75,4 faizi daxili investisiyalar olub. Bu investisiyaların 5 milyard 231 milyon manatı və ya 78,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilib.

Qeyd edək ki, Azərbaycan son illərdə iqtisadi və institusional islahatlar nəticəsində investorlar üçün daha cəlbedici bir mühit formalaşdırıb. İnvestisiya qanunvericiliyinin təkmilləşdirilməsi, vergi güzəştləri, sərmayədarların hüquqlarının qorunması və logistika infrastrukturunun genişlənməsi bu sahədə əsas üstünlüklər kimi daim önə çəkilib. Xüsusilə sənaye zonaları və azad iqtisadi zonaların yaradılması (məsələn, Ələt Azad İqtisadi Zonası) ilə yerli və xarici investorlar üçün geniş imkanlar açılıb.

Xatırladaq ki, qeyri-neft sektorunda, xüsusən kənd təsərrüfatı, alternativ enerji, İKT, turizm, nəqliyyat – logistika və emal sənayesi sahələri yüksək potensiala malikdir. Dövlətin "yaşıl" inkişaf gündəliyi çərçivəsində bərpa olunan enerji layihələrinə (Günəş və külək enerjisi stansiyaları kimi) artan diqqət bu sahədə iri xarici investisiyaların cəlb olunmasını şərtləndirir. Məsələn, BƏƏ və Səudiyyə Ərəbistanından olan enerji şirkətləri bu istiqamətdə iri layihələr həyata keçirməkdədir.

Eyni zamanda, Azərbaycanın geostrateji mövqeyi – Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizlərində yerləşməsi ölkəni regional logistika və ticarət mərkəzinə çevirmə potensialını artırır. Bu isə tranzit daşımaları və ticarət xidmətləri sahəsində sərmayələrin artmasına səbəb olur.

Cari ilin I rübündə müşahidə olunan investisiya axınları ölkə iqtisadiyyatının sabitliyini, investorlara təqdim olunan şəffaf mühiti və inkişaf strategiyalarının səmərəliyini bir daha təsdiqləyir. İstər daxili, istərsə də xarici investorlar üçün Azərbaycanın təqdim etdiyi imkanlar real iqtisadi dəyər və uzunmüddətli gəlirlilik perspektivləri vəd edir. Bu dinamika ölkənin dayanıqlı və rəqabətədavamlı iqtisadi inkişafına təkan verir.

Qeyd edək ki, son illərdə Azərbaycan iqtisadiyyatının diversifikasiyası, biznes mühitinin liberallaşdırılması və xarici investisiyaların cəlbi istiqamətində mühüm addımlar atılıb. Enerji sektorundakı sabit mövqeyini qorumaqla yanaşı, qeyri-neft sahələrinə investisiyaların artırılması da dövlətin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılıb. Ölkənin geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları, geniş infrastruktur layihələri və islahat yönümlü iqtisadi siyasəti nəticəsində Azərbaycan regionda cəlbedici investisiya məkanına çevirilib.

İnvestisiya mühitini müəyyənləşdirən əsas amillərə gəldikdə isə qeyd edə bilərik ki, bu məsələdə hüquqi bazanın yaradılması və islahatların həyata keçirilməsi mühüm önəm daşıyıb. Azərbaycan "İnvestisiyaların təşviqi haqqında" qanunvericilik bazasını yenilənməsi, investorların hüquqlarının qorunması, arbitraj mexanizmlərinin təkmilləşdirilməsi və lisenziya-vergi yüklərinin azaldılması istiqamətində mühüm tədbirlər görüb. Əlavə olaraq, "İnvestisiya təşviqi sənədi" alan layihələr 7 il müddətinə vergi güzəştləri əldə edib.

Azərbaycanda əlverişli xarici investisiya mühitindən danışarkən isə bu məsələdə beynəlxalq reytinqlərin ölkəmizin vəziyyəti barədə qiymətləndirmələrinə də diqqət yetirmək istərdik. Məsələn, Doing Business (Dünya Bankı) hesabatına əsasən, Azərbaycan 191 ölkə arasında 34-cü yerdə qərarlaşıb. Bu göstərici "biznesin qeydiyyatı", "tikintiyə icazə", "vergi ödəmələri" və "müqavilələrin icrası" kimi sahələrdə irəliləyişləri əks etdirib. Qlobal Rəqabətlilik İndeksində isə ölkəmiz 141 ölkə arasında 58-ci yeri tutub, infrastruktur, makroiqtisadi sabitlik və bazar ölçüsü üzrə yüksək nəticələr göstərib.

Respublikamızda investorlara cəlbedici olan sahələr də artıq müəyyənləşdirilib. Bura bərpa olunan enerji, aqrobiznes, turizm və xidmət sektoru kimi sahələr daxil edilib. Bu fikri konkret ifadə edərək bildirək ki, xüsusilə Qarabağ və Naxçıvan bölgəsində günəş və külək enerjisi potensialı yüksək qiymətləndirilib. BP, ACWA Power (Səudiyyə Ərəbistanı) və Masdar (BƏƏ) kimi şirkətlər bu sahəyə daxil olunub. İxracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə investisiyalar üçün də əlverişli imkanlar yaradılıb. Aqroparkların və xüsusi iqtisadi zonaların bu sahəyə marağı gücləndirilib. Nəhayət, turizm və xidmət sektoru üçün Qarabağ bölgəsində "yaşıl" turizm, sağlamlıq və mədəni turizm istiqamətləri üzrə layihələr planlaşdırılıb və icrasına başlanılıb.



# Naxçıvanda taxıl biçini

**Naxçıvan Muxtar Respublikasında taxıl biçini mövsümünə start verilib. Dünən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayonunun Yuxarı Uzunoba kəndində fermer təsərrüfatında olub, biçin kampaniyasının gedişi ilə maraqlanıb.**

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Rafail Quliyev məlumat verib ki, ümumilikdə, bu il muxtar respublikada 17582,6 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 8275,7 hektarında buğda, 9306,9 hektarında isə arpa əkilib. Bu günədək 2423,3 hektar sahədə biçin aparılıb. Ən yüksək məhsuldarlıq 31,2 sentner olmaqla Şərur rayonunda qeydə alınıb. Ən çox əkin sahəsi isə Babək rayonunun payına düşür. Rayonda 2163,5 hektarı buğda, 2986,1 hektarı arpa olmaqla, ümumilikdə, 5149,6 hektar sahədə əkin aparılıb. Hazırda rayonda 618,9 hektar sahədə biçin başa çatıb.

Məlumat verilib ki, taxıl biçini prosesinin effektiv təşkili üçün Kənd Təsərrüfatı Nazirliyi nəzdində Mərkəzi Qərargah yaradılıb, texnika və avtomobillər hazır vəziyyətə gətirilib və 77 kombayn işə cəlb olunub.



# Sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb

**Azərbaycanda sənaye zonaları üzrə indiyədək ümumi investisiya həcmi 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb.**



İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bu barədə Sumqayıt Kimya Sənaye Parkına səfər edən Türkiyənin bir sıra media qurumlarının nümayəndələrinə məlumat verilib. Jurnalistlərin diqqətinə çatdırılıb ki, ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

Media qurumlarının nümayəndələrinə Azərbaycanın iqtisadi potensialı, əlverişli işgüzar mühiti, sənaye zonaları, burada investorlar üçün yaradılan imkanlar, həyata keçirilən layihələr barədə də ətraflı məlumat verilib. Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkının kimya, neft-kimya, maşınqayırma, tikinti materialları, metallurgiya və s. istiqamətlər üzrə fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Ərazisi 613 hektar olan sənaye parkında rəqabətqabiliyyətli məhsulların istehsalının və emalının həyata keçirildiyi, burada sahibkarlıq fəaliyyətinin inkişafı məqsədilə əlverişli investisiya mühiti yaradıldığı, sahibkarların dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edildikləri, bundan başqa, rezidentlərin qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunduqları diqqətə çatdırılıb.

Parkda ümumi investisiyalarının həcmi, təqribən, 6 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, onlardan da 26-sı artıq fəaliyyət göstərir. İndiyədək parkın rezidentləri tərəfindən, ümumilikdə, 14 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da, təqribən, 5 milyard manatlıq hissəsi ixracın payına düşür.

Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ilin birinci rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda burada 6 mindən çox insan daimi işlə təmin olunub. Parkda istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilib.

Media mənsubları Sumqayıt Kimya Sənaye Parkında görülmüş işlərlə, o cümlədən, "Kartaş Kimya" və "Sika" MMC-lərin istehsal müəssisələrinin fəaliyyəti ilə tanış olublar. Türkiyəli media təmsilçilərinin sənaye zonaları ilə bağlı sualları cavablandırılıb.

# Orta Dəhlizin strateji önəmi artır

**"Astana" Beynəlxalq Maliyyə Mərkəzi və ADA Universitetinin nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun hazırladığı iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi perspektivləri haqqında analitik hesabatda bildirilir ki, Orta Dəhliz son 4 il ərzində yük axınında 5 dəfədən çox artım nümayiş etdirərək, Avrasiya ticarəti üçün əsas quru körpüsü olmaq potensialını təsdiqləyib.**



Sənəddə daha sonra qeyd olunur ki, Qazaxıstan – Azərbaycan əməkdaşlığında nəqliyyat və logistika mühüm rol oynayır və iki ölkənin Çini Avropa ilə birləşdirən Orta Dəhliz boyunca strateji mövqeyinə əsaslanır. Orta Dəhliz uzun illərdir ki, fəaliyyət göstərsə də, yalnız onun əhəmiyyəti Çin və Avropa arasında quru marşrutlarının şaxələndirilməsinə kömək edən mövcud geosiyasi vəziyyətdə daha çox müşahidə olunur.

Hesabata əsasən, bu marşrut Qazaxıstan və Azərbaycan arasında ticari-iqtisadi əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb edir. Orta Dəhliz Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçən strateji əhəmiyyətli multimodal marşrutdur və həm Avropa İttifaqının "Global Gateway" strategiyasının həyata keçirilməsində, həm də Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün optimallaşdırılmasında aparıcı rol oynayır. Son illər ərzində marşrutla yüklərin çatdırılma müddətinin 38-53 gündən 19-23 günə qədər azalması da məz bunun bariz ifadəsidir. Qeyd edək ki, hazırda hədəf bu göstəricini 15 günə endirməkdir.

Sənəddə qeyd edilir ki, Rusiyadan keçən Şimal Dəhlizi ilə müqayisədə Orta Dəhliz bir sıra üstünlüklərə malikdir. Belə ki, geosiyasi gərginlik və sanksiyalar şəraitində Şimal marşrutu ilə tranzit gecikmə və gücləndirilmiş nəzarət risklərinə məruz qalır. Bundan başqa, bir tranzit dövlətdən asılılıq təchizat zəncirlərinin sabitliyinə təhlükə yaradır. Bununla müqayisədə Orta Dəhliz geosiyasi qeyri-sabitliklə bağlı riskləri azaldan daha çox şaxələndirilmiş və dayanıqlı marşrutu gerçəkləşdirir.

Orta Dəhliz daşıma həcmlərində nəzərəçarpan artım nümayiş etdirir ki, bu da müasir İpək Yolu çərçivəsində onun artan strateji əhəmiyyətini vurğulayır. 2021-ci ildə dəhlizlə daşımaların həcminin, təxminən, 840 min ton təşkil etməsi, 2024-cü ildə isə 435 faiz artımla 4,5 milyon tona çatması da məhz bu fikrin rəsmi təsdiqidir.

Məlumatda vurğulanır ki, marşrutun inkişafında iştirak edən tərəflər 2030-cu ilə qədər daşımaların illik ümumi həcmini 10 milyon tona çatdırmağı hədəfləyib. Bunun üçün infrastruktura investisiya qoyuluşu, gömrük prosedurlarının uzlaşdırılması və Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında logistikanın koordinasiyası qarşıya mühüm vəzifə kimi qoyulub. Cəmi dörd il ərzində Orta Dəhliz yük axınında 5 dəfədən çox artım nümayiş etdirərək, qlobal təchizat zəncirlərinin yenidən qurulması və geosiyasi dəyişikliklər fonunda Avrasiya ticarəti üçün əsas quru körpüsü olmaq potensialını təsdiqləyib.

Hesabatın müəllifləri hesab edirlər ki, Orta Dəhliz təkcə nəqliyyat marşrutu deyil, həm də iqtisadi və infrastruktur marşrutu kimi də nəzərdən keçirilməlidir. Bu dəhliz Qazaxıstan və Azərbaycan, region ölkələri arasında ticarətin inkişafına və iqtisadi əməkdaşlığın möhkəmlənməsinə, iqtisadi əlaqələrin güclənməsinə töhfə verir.

Sənəddə qeyd olunur ki, Dünya Bankının proqnozlarına görə, 2030-cu ildə Orta Dəhlizlə daşımaların həcmi ildə 11 milyon tona çatacaq. Mövcud geosiyasi dəyişikliklər şəraitində bu göstərici yenidən nəzərdən keçirilə bilər ki, bu da marşrutun strateji əhəmiyyətini daha da artıracaq.

# Bakıda "Ro-Pax" tipli dəniz nəhəngi tikilir

**Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin Bakı Gəmiqayırma Zavoduna yerləşdirdiyi sifariş əsasında inşa edilən növbəti Ro-Pax tipli gəmi-bərə üzrə işlər cədvələ uyğun şəkildə davam etdirilir.**

Gəmiçilikdən aldığımız məlumata görə, hazırda gəminin inşası üzrə ümumi işlərin 64 faizi tamamlanıb. Gövdə hissəsinin hazırlanması üzrə 98 faiz, mühəndislik işləri üzrə 99 faiz, satınalma və təchizat mərhələsi üzrə işlər isə 91 faiz yerinə yetirilib. Baş mühərriklər, yanğınsöndürmə və şirin su sistemləri, eləcə də yük liftinə aid avadanlıqlar, nasoslar və elektrik panelləri artıq gəmi üzərinə quraşdırılıb.

Tikinti prosesi çərçivəsində 33 blok və sub-blok üzrə boyama və birləşdirmə işləri başa çatdırılıb. Eyni zamanda, əsas gövdə üzrə blokların yığılması prosesi tam şəkildə tamamlanıb. Yeni "Ro-Pax" tipli gəmi-bərənin 2026-cı ilin birinci rübündə təhvil verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, gəmi-bərənin maksimal sürəti 14 uzel, uzunluğu 154,5, eni 17,7, bortunun hündürlüyü isə 7,5 metr təşkil edəcək.



Yeni gəmi eyni vaxtda 100 sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR qəbul etmək imkanına malik olacaq.

# “Ana təbiət”imiz London Dizayn Biennalesində






**London Dizayn Biennalesi–2025 çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub.**

Azərbaycan London Biennalesində ilk dəfə təmsil edilir. Milli pavilyon çərçivəsində Heydər Əliyev Mərkəzi və IDEA İctimai Birliyinin təqdim etdiyi MAMA “Ana təbiət” beynəlxalq incəsənət sərgisində insanın təbiətlə dərin bağları müasir incəsənət və ekoloji düşüncə vasitəsilə araşdırılır.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva planetimizdə iqlim dəyişikliyi nəticəsində yaranan mövcud problemlərə diqqət çəkərək, təbiətlə yenidən əlaqə qurulmasının vacibliyini, qayğının, yaradıcı düşüncənin rolunu vurğulayıb. “Təbiət bizim evimizdir. Qlobal dəyişikliklər fonunda biz yalnız məsuliyyət deyil, eyni zamanda incəsənət, gözəllik, qadın duyumu vasitəsilə təbiətin ritmlərini, səsini yenidən eşitmək imkanı əldə edirik”, – deyən Leyla Əliyeva bildirib ki, “Ana təbiət” beynəlxalq incəsənət layihəsi Bakıda Heydər Əliyev Mərkəzindəki debütü, Bəhreyn İncəsənət Mərkəzi və Romadakı MAXXI incəsənət muzeyindəki uğurlu təqdimatından sonra səyahətini davam etdirir. Azərbaycan bir daha sübut edir ki, mədəniyyət, ekologiya və humanist dəyərlərin qovşağında qlobal dialoq aparmaq gücünə malikdir.

London Dizayn Biennalesi–2025-in direktoru Viktoriya Broaks çıxışı zamanı pavilyonun şeiriyyətini diqqətə çəkib və ekoloji çağırışa verdiyi bədii cavabı yüksək qiymətləndirib.

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Britaniya parlamentinin Lordlar palatasının üzvü lord Con Alderdays mədəni mübadilənin və ekoloji dialoqun davamlı gələcək üçün əhəmiyyətini vurğulayıb.

London Dizayn Biennalesi tarixi “Somerset House” binasında 2 ildən bir keçirilən beynəlxalq sərgidir. Biennale müxtəlif ölkələrdən rəssam, dizayner, memarları bir araya gətirir. London Dizayn Biennalesi bu il “Səthin əks olunması” mövzusunu əhatə edir.

Azərbaycan pavilyonu iyunun 29-dək ziyarətçilər üçün açıq olacaq.

***XQ***

# Mömінə xatun türbəsinə XXI əsrin sığalı çəkiləcək

**Xəbər verildiyi kimi, Prezident cənab İlham Əliyev may ayının 22-də “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında türbənin bərpa və konservasiyasının aparılması ilə bağlı müqavilə bağlanıb və ictimaiyyət üçün brifinq keçirilib.**



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirlinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov Möminə xatun türbəsinin bərpa və konservasiyası istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrdən bəhs edib. Qeyd olunub ki, tarixi abidənin mövcud vəziyyətinin hərtərəfli tədqiqi və ölçmə işlərinin aparılması üçün ilkin baxış keçirilib və nəticələr barədə nazirliyə müvafiq sənədlər təqdim olunub. Həsən Seyidov mədəniyyət işçiləri adından Prezident İlham Əliyevə mədəni irsimizə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Avstriyanın dünyaca məşhur restavrasiya şirkəti olan “Atelier Erich Pummer GmbH”-nin rəhbəri Erich Pummer çıxış edərək abidənin mövcud vəziyyəti və gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, AMEA-nın müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Hacı Fəxrəddin çıxışlarında Möminə xatun türbəsinin tarixi əhəmiyyətindən, bərpa və konservasiya olunmasının vacibliyindən danışıb, bu sahədə gələcəkdə görüləcək işlərlə bağlı düşüncələrini bildiriblər.



Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə “Atelier Erich Pummer GmbH” Şirkəti arasında bərpa və konservasiyasının aparılması ilə bağlı müqavilə imzalanıb. Media nümayəndələrinin iştirakı ilə brifinq keçirilib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

Redaksiyaya məktub

# Pənahəli xan abidəsi Şuşaya əzəmət gətirər

*Bu həm də qala-şəhəri kimin saldığına vurulan möhür olar*

Hörmətli redaksiya!

“Xalq qəzeti”nin 12 iyun 2025-ci il tarixli nömrəsində əməkdaşınız Pünhanın “Şuşanın “Gəncə qapısı” meydanı Pənahəli xanın abidəsini gözləyir” məqaləsini oxuyanda xəyalən 34 il bundan əvvələ qayıtdım. Əgər erməni vandallarının Topxana meşəsini qırdıqlarına görə xalqımız etiraza qalxmasaydı, bəlkə də, mədəniyyət paytaxtımız olan Pənahabadın – Şuşa qalasının bünövrəsini qoymuş, onun uğrunda Məhəmmədhəsən xan Qacarla, Fətəli xan Əfşarla vuruşmuş Pənahəli xan Cavanşir haqqında tarixi roman yazmazdım.




O zaman mən “Yazıçı” nəşriyyatında klassik ədəbiyyat və folklor redaksiyasının müdiri vəzifəsində çalışırdım. Dövrün qaydasına görə, nəşriyyatların tematik planı 1–2 il qabaqdan tutulmağa başlanırdı. Səbəb də bu idi ki, çapı nəzərdə tutulan əsərlər müxtəlif mərhələlərdən keçirdi, rəylər alınırdı. Sonra Dövlət Mətbuat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsində, nəhayət, Azərbaycan KP MK-nın ideoloji şöbəsində baxılıb təsdiq edilirdi. Mənim də “Təbəssüm çiçəyi” adlı povest və hekayələrdən ibarət kitabının 1990-cı ildə nəşr olunması nəzərdə tutulmuşdu.

1988-ci ildə məlum hadisələr başlananda ürəyimdə çapı nəzərdə tutulmuş kitabımın nəşrindən vaz keçdim. O zaman baş verən hadisələr, daşnakların tarixi saxtalaşdırmaq yolundakı canfəşanlıqları məni Qarabağın keçmişi ilə, xüsusən Qarabağ xanlığının banisi, Bayat, Şahbulaq, sonda Şuşa kimi bir şəhər-qalanı bizə bəxş etmiş Pənahəli xanın ömür yolu və 12 illik hakimiyyəti dövründə baş vermiş hadisələr barədə düşünməyə vadar etdi. Mövcud ədəbiyyatla, o vaxta qədər çap olunan və hələ də olunmayan “Qarabağnamələr”lə tanış olduqca gördüm ki, tarix bu və ya digər formada təkrar olunur.

Mövzu mənə çox doğma idi. Buna görə də yazı prosesində ləngimələr, tərəddüdlər olmurdu. 1989-cu ilin sonlarında romanı yazıb bitirdim. İlkin olaraq “Ədəbiyyat və incəsənət” qəzetində romandan bir parça çap etdirdim. Əsərin böyük bir hissəsi isə o zaman yenicə nəşrə başlayan “Karvan” roman-qəzetinin 1990-cı il 10,11-ci nömrələrində çap edildi. Xatırladım ki, bu jurnal 45 min tirajla çıxırdı. Mən bununla kifayətlənməyib romanın əlyazmasını Şuşaya – Qarabağ xanlığının tarixini çox yaxşı bilən professor Nazim Axundova göndərdim ki, oxuyub rəyini bildirsin. Doğrusu, o vaxta qədər Nazim Axundovla şəxsi tanışlığım yox idi. Amma onun mətbuatımızın tarixinə aid yazılarını, “Molla Nəsrəddin” jurnalının nəşri tarixi”, “Azərbaycan satirik jurnalları”, “Azərbaycan dövri mətbuatı (biblioqrafiya)” kitablarını oxumuşdum. O zaman Nazim müəllim Xankəndidə Dövlət Pedaqoji İnstitutunun filialında Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri işləyir, Şuşada yaşayırdı.

Qarabağda isə hadisələr yaxşılığa doğru cərəyan etmirdi. Vətəndaşlıq hissini unutmuş separatçı ermənilər orada dərs deyən azərbaycanlı müəllim və tələbələrə qarşı ağla sığmayan kobudluqlar edir, iyrənc təxribatlar törədirdilər. Ona görə də Şuşaya gediş-gəliş çətinləşmişdi. Mən romanın vaxtında çap olunmasını istəyirdim. Əsərin əlyazması isə Şuşada, Nazim müəllimdə qalmışdı. Çox çətinliklə professorla əlaqə yaradıb, əlyazmanı Bakıya – mənə göndərməsini xahiş etdim.

Bir neçə gündən sonra nəşriyyatın baş redaktoru, yazıçı Cəmil Əlibəyov daxili telefonla məni yanına çağırdı. Onun kabinetinə girəndə ağsaçlı bir ziyalının Cəmil müəllimlə üz-üzə oturub söhbət etdiyini gördüm. O məni tanımasa da, kitablarındakı şəklindən, bir də qarşısındakı qovluğumdan kim olduğunu anladım. Qəlbi təmiz Cəmil müəllimin üzü nurlanmışdı:

– Nazim müəllim, – dedi, – bayaqdan romanını təriflədiyin cavan oğlan budur.

Nazim müəllim qalxıb, mənimlə mehribancasına görüşdü:

– Təbrik edirəm! Cəmil müəllimə də demişəm, sənin romanın bu gün 100 min tirajla çap olunsa, satılar.

– Nazim müəllim, belə yüksək fikirdə olduğunuza görə sizə təşəkkür edirəm! – dedim.

O, əlyazmanı və bir topa qəzeti mənə uzadaraq:

– Mənim təqdimatımla "Şuşa" qəzeti 12 nömrəsində romanından fəsillər çap edib. Darıxdın, redaksiya istəyirdi ilboyu əsərini çap etsin, – dedi.

– Nazim müəllim, buna görə də təşəkkür edirəın. Görürsünüz də hadisələr necə cərəyan edir. İstəyirəm əsərim kitab halında çıxsın, qorxuram sonra gec ola.

– Doğrudur, – dedi, – romanın haqqında ürək sözlərimi də yazmışam. Xoşun gəlsə, çap etdirərsən.

Əlyazma ilə tanış olan Nazim müəllim roman haqqında “Tarixi yaddaşın bərpası” adlı məqaləsində yazırdı: “Yazıçı Mustafa Çəmənli Pənah xanın həyatından maraqlı, tarixi həqiqətlə səsləşən “Xallı gürzə” romanını qələmə almışdır. Tarixi mənbələri diqqətlə öyrənmiş müəllif tamamilə müasir səslənən, dövrümüzdə baş verən, xalqa əzab və iztirab gətirən uydurma Qarabağ “problemini” dərindən dərk etməyə kömək göstərən bədii lövhələr yarada bilmişdir”.

Mənim bu günə qədər 5 dəfə nəşr olunmuş “Xallı gürzə” tarixi romanım 1991-ci ildə Mətbuat Komitəsinin kitab ticarəti təşkilatlarının verdiyi tiraja rəğmən 30 min tirajla çap olunmuşdu. Öyünmək kimi səslənməsin, çağdaş günümüzlə səsləşən bu tarixi roman oxucular arasında geniş əks-səda doğurmuşdu.



1992-ci ildə məni “Gənclik” nəşriyyatına Baş redaktor vəzifəsinə təyin etdilər. Bir gün nəşriyyata ortaboylu bir kişi gəlib mənimlə tanış oldu. Bu adam heykəltəraş Cümşüd İbrahimli idi. O, mənim Pənahəli xan haqqında yazdığım “Xallı gürzə” romanını oxuduğunu və Qarabağ xanının at belində heykəlini yaratdığını söylədi. İstedadlı heykəltəraşın yaratdığı heykəllə mənim romanımın son sətirləri bir-birini tamamlayırdı. Mən romanı bu sətirlərlə bitirmişdim: “Düşmən qoşunu geri çəkilməkdəydi. Bunu görən Pənah xan qala bürcündən aşağı düşdü. Onun da ürəyinə dammışdı ki, bu gün sonuncu döyüşdü. Kərim tez xanın oyur-oyur oynayan Qəmərinin üzəngisini basdı. Xan Qəmərin belinə sıçradı, at şahə qalxdı. Hər iki tərəf bu dəm əl saxladı, günəş dağların üstündə dayandı. Pənah xan şahə qalxmış Qəmər atın belində, bir əlində qalxan, bir əlində sıyrılmış qılınc sanki donmuşdu. Günəşin son şəfəqləri onun polad dəbilqəsini, iti qılıncını öpürdü”.

Hörmətli redaksiya!

Mən də Sizin və hörmətli heykəltəraşımız Cümşüd İbrahimlinin arzusuna qoşulur, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dönməz iradəsi, igid qazilərimizin, qəhrəman şəhidlərimizin şücaəti və qanı bahasına azad edilmiş mədəniyyət paytaxtımız Şuşada, şərəfli keçmişimizə şahidlik etmiş bu tarixi şəhər-qalamızda Pənahəli xanın heykəlinin ucaldılmasını arzu edirəm. Bu heykəl öz layiq olduğu məkanda ucaldılarsa, bizim tarixi şəxsiyyətlərimizə göstərilən sayğımızın rəmzinə çevrilər.

***Mustafa ÇƏMƏNLİ,***
***yazıçı-publisist,***
***Əməkdar mədəniyyət işçisi***

# Qubada “Vətən” rüzgarı



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun və ADPU-nun Quba filialının birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” çərçivəsində ustad şair Ramiz Qusarçayının “Vətən” poemasında dil məsələləri” adlı elmi-təqdimat keçirildi.**

Təqdimatdan əvvəl filialın Kitabxana və elektron resurslar şöbəsinin təşkilatçılığı ilə Azərbaycan mütəfəkkirlərinin və Ramiz Qusarçaylının əsərlərindən hazırlanmış kitab sərgisinə baxış oldu. Filialın Heydər Əliyev lektoriyasının müdiri Nəhayət Şirinovanın aparıcılığı ilə keçirilən tədbirin əvvəlində “Vətən” adlı video-çarx nümayiş etdirildi, şairin “Azərbaycan Bayrağı” şeiri səsləndirildi.

Açılış nitqi ilə çıxış edən ADPU-nun Quba filialının direktoru, fizika elmləri doktoru, professor Yusif Alıyev belə tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsi baxımından əhəmiyyətini vurğuladı. Bildirdi ki, Azərbaycan poeziyasının tanınmış siması, xalq ruhunun tərənnümçüsü Ramiz Qusarçaylının “Vətən” poemasının həm bədii-estetik yükünə, həm də dilin zəngin ifadə imkanlarına görə diqqətəlayiqdir. Onun poetik dili xalq danışığından, folklordan, milli təfəkkürdən qidalanır və bu da əsərin oxucu ilə təbii ünsiyyətini təmin edir. Bu poemada dil sadəcə vasitə deyil, bir ruhdur, bir kimlikdir.

Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova poemanın milli-mənəvi dəyərimizə çevrilməsindən bəhs etdi. AMEA-nın Dilçilik İnstitutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli çıxışında xüsusi olaraq qeyd etdi ki, “Vətən” poemasının dil və üslub xüsusiyyətləri üzərində dayanmaq, bu əsərin bədii dəyərini dilçilik prizmasından qiymətləndirmək olduqca yerində və vacib təşəbbüsdür.

“Vətən naminə” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, Vətən Müharibəsi şəhidi Miqdad Abduləlimovun anası Tünzalə Abduləlimova poemanın torpaq uğrunda canını fəda etmiş qəhrəmanların ruhuna olan ən gözəl ithaf kimi dəyərləndirdi və müəllifi birliyin fəxri fərmanı ilə təltif etdi.

Sonra digər çıxışlar oldu, poemadan parçalar səsləndirildi, suallar cavablandırıldı.

Ramiz Qusarçaylı “Vətən” poemasının dil məsələlərindən bəhs edən dəyərli çıxışçılara təşəkkürlərini ifadə etdi. Sonda professor Nadir Məmmədli və Ramiz Qusarçaylı filialın Fəxri Diplomları ilə təltif edildilər.

***Ə.DOSTƏLİ***
***XQ***

# Soydaşımızın Çin universitetinə Azərbaycan haqqında kitab hədiyyəsi

**Çinin Yanşan Universitetinin kitabxanasına Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı, tarixi və mətbəxinə dair 25 fərqli adda 32 ədəd kitab hədiyyə edilib.**

Nəşrlər universitetinin azərbaycanlı tələbəsi Sadiq Qaçayevin təşəbbüsü, Azərbaycanın Çindəki səfirliyi və Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsi Azərbaycan dili kafedrasının dəstəyi ilə ali təhsil ocağına təqdim olunub.

Universitet kitabxanasının direktoru xanım Yuan Sümey kitabxana resurslarının zənginləşdirilməsinə töhfəyə görə təşəkkürünü bildirib. O deyib ki, ianə edilmiş kitablar Azərbaycan–Çin dostluğunun möhkəmlənməsinə töhfə verəcək, çinli və əcnəbi tələbələr həmin kitablardan istifadə etməklə Azərbaycan haqqında daha çox məlumat əldə edə biləcəklər.

Qeyd edək ki, Yanşan Universitetinin yeganə azərbaycanlı tələbəsi olan Sadiq Qaçayev humanitar elmlər və hüquq məktəbində doktorantura pilləsi üzrə təhsil alır. O, həm



də Hebey əyalətinin Dövlət Siyasətinin Təhlili və Tədqiqi Mərkəzinin əsas ekspertidir.

***Əli NƏCƏFXANLI***
***XQ***

İqtisad Universiteti – 95

# İqtisadçı kadrlar hazırlığına önəmli töhfə





**İyunun 19-da Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 95 illik yubileyi qeyd olunub.**

Açılış nitqi ilə çıxış edən rektor, professor Ədalət Muradov UNEC kollektivini, məzunlarını yubiley münasibətilə təbrik edib. Rektor son 10 ildə universitetdə aparılan uğurlu islahatlardan söz açıb. O, UNEC-in regionda rəqəmsal universitet modelini tətbiq edən ilk ali təhsil müəssisəsi olduğunu diqqətə çatdırıb. Həmçinin UNEC-in süni intellektin tədris prosesinə, elmi tədqiqatların təşkili işinə inteqrasiyası məqsədilə xarici mütəxəssislərlə birgə layihə reallaşdırdığını qeyd edib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli UNEC-in 95 il ərzində ağır yollardan keçməsinə baxmayaraq, hazırda müasir tələblərə cavab verən dünyəvi universitet modeli qurduğunu deyib. O, UNEC-in ölkənin əsas elm mərkəzlərindən biri funksiyasını layiqincə yerinə yetirdiyini, eyni zamanda, ölkədə əmək bazarını istiqamətləndirən karyera mərkəzinə çevrildiyini, eləcə də UNEC-in müasir dövrün çağırışlarına uyğun kadrlar yetişdirdiyini diqqətə çatdırıb.

Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Anar İsgəndərov UNEC kollektivini təbrik edərək, bu ali təhsil müəssisəsinin ölkənin iqtisadçı kadrların hazırlanmasındakı əvəzsiz rolundan söz açıb.

Hesablama Palatası ilə UNEC-in son illərdəki sıx əməkdaşlığından söz açan Palata sədri Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumda son 5 ildə işə qəbul olunan 47 əməkdaşın UNEC məzunu olduğunu deyib. O, ümumilikdə Palatanın inzibati heyət üzrə əməkdaşlarının 55 faizinin məhz UNEC məzunları olduğunu diqqətə çatdırıb. Hesablama Palatasının UNEC ilə müxtəlif istiqamətlərdə uğurlu layihələr həyata keçirdiyini deyən Vüqar Gülməmmədov əməkdaşlığın bundan sonra da yüksələn xətlə davam edəcəyini bildirib. AHİK-in sədri Sahib Məmmədov məzunu olduğu universitetin kollektivini təbrik edərək, UNEC-in ölkəmizin ali təhsil sistemində lider mövqeyə malik olduğunu deyib. Millət vəkili, akademik Ziyad Səmədzadə yubiley münasibətilə universitetin kollektivini təbrik edərək, bu ali təhsil müəssisəsinin ölkəyə verdiyi böyük töhfələrdən danışıb.

Sonda rektor UNEC-in son 10 ildə elm, təhsil, tədris, beynəlxalq əlaqələr və digər sahələrdə əldə etdiyi uğurlar barədə geniş təqdimatla çıxış edib.

*XQ*

# Azərbaycan İrandan çıxmağa yol açır

**İsrail və İran arasında toqquşma ilə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə, İran İslam Respublikasındakı səfirliyimizə, habelə Təbriz şəhərindəki baş konsulluğumuza daxil olan müraciətlər əsasında ölkəmizin vətəndaşlarının və əcnəbilərin İran ərazisindən çıxması prosesi davam edir.**

Bu barədə XİN-in mətbuat katibi Ayxan Hacızadə məlumat verib.

Onun sözlərinə görə, İranı tərk etmək istəyən Azərbaycan vətəndaşlarının, eləcə də digər ölkələrin vətəndaşlarının quru sərhədindən keçidi istiqamətində müvafiq icazələrin alınması üçün tədbirlər görülür.

“Bu günə olan məlumata əsasən, 600 nəfərdən çox Azərbaycan vətəndaşı sərhəddən keçid üçün müraciət edib və onlardan 180 nəfər artıq Azərbaycan ərazisinə daxil olub. İndiyə qədər 77 ölkədən daxil olan müraciətlər müvafiq qaydada nəzərdən keçirilir və həmin ölkələrin vətəndaşlarının keçidinə şərait yaradılır”, - deyə XİN-in mətbuat katibi söyləyib.

Qeyd edək ki, Rusiyanın, Birləşmiş Krallığın, Kanadanın, İtaliyanın xarici işlər nazirləri, eləcə də müxtəlif səviyyələrdə bir çox ölkələr dəstəyə görə Azərbaycana dərin minnətdarlıqlarını bildiriblər.

# Ermənistanın Azərbaycanın mülki infrastrukturuna vurduğu ziyan və itkilər məhkəmədə araşdırılıb





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 19-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs David Manukyana növbəti suallar verib. O, əvvəlcə Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərində mina basdırılması ilə bağlı sualları cavablandırıb.

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, müxtəlif vəzifələr tutmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş, Azərbaycanın vaxtilə işğaldakı ərazilərində keçmiş qondarma rejimin “ordusu”nda (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsində - red.) “komandanın birinci müavini” olmuş Ermənistan vətəndaşı David Manukyan Birinci Qarabağ müharibəsində mina basdırılması və təmizlənməsi ilə məşğul olmadığını bildirib. Təqsirləndirilən şəxs daha sonra deyib: “Formulyarların və xəritələrin saxlanması ilə bağlı çox aydın şəkildə təlimatlar verilib. Hər bir minalanma işindən əvvəl yuxarı komandanlıq tərəfindən əmr verilirdi. Orada ünvanlar qeyd olunur ki, hansı ünvana nə göndərilsin. Biz də əmrdə qeyd olunan maddələrə əsasən fəaliyyət göstərmişik”.

Təqsirləndirilən şəxs prokurorun “Bəs sizdən aşağıda olan diviziya komandirləri sizə məruzə etmədən, korpus rəhbərliyinə məlumat vermədən, öz təşəbbüsləri ilə əraziləri minalaya bilərdilərmi? Bu hüquqları olubmu?” sualına isə “xeyr” cavabını verib.

Təqsirləndirilən şəxs muzdlu hərbçilərlə bağlı sualı da cavablandıraraq qeyd edib ki, Xankəndidə yaşadığı evdə aşkarlanmış “Cəsurlar dəstəsi” Ermənistanın Müdafiə Nazirliyi tərəfindən formalaşdırılıb. D.Manukyan xarici vətəndaşların döyüşlərə cəlb olunmalarının hansı əsasla aparılması barədə suala isə belə cavab verib: “Mən onların kimliyini yoxlamırdım. Bu, mənim vəzifə borcum deyil. Mən onlara nəzarət etmək, onların hansı ölkədən gəldiyini müəyyənləşdirmək səlahiyyətində deyildim”. O, əsir və girovların qul kimi işlədilməsi, onlara işgəncə verilməsi hallarının şahidi olmadığını deyib.

D.Manukyan işğal dövründə Azərbaycanın ekologiyasına ziyan vurulması, yanğınlar törədilməsi barədə suala isə “Tutduğum vəzifənin o məsələlərlə əlaqəsi olmayıb” cavabını verib. O, 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Ermənistanda, 2020-ci ilin iyulundakı Tovuz döyüşləri vaxtı isə Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində olduğunu bildirib.

2019-cu il dekabrın 26-da imzalanmış əmrlə qondarma qurumun “ordu komandanının birinci müavini” təyin edilmiş D.Manukyan həmin təyinatla bağlı xidmətə 2020-ci il fevralın əvvəlində başladığını bildirib. Təqsirləndirilən şəxs təyinatı ilə bağlı 2020-ci ilin yanvarında Ermənistan baş nazirinin, general-mayor rütbəsi alması ilə bağlı isə Ermənistan prezidentinin qəbulunda olduğunu söyləyib. Əlavə edib ki, həmin vaxt Ermənistanın müdafiə naziri David Tonoyan idi.

D.Manukyan 2020-ci ildə baş vermiş 44 günlük müharibə zamanı qondarma “ordu komandanının birinci müavini” “vəzifəsi”ndə olduğunu deyib . David Tonoyanın fikirlərinin yer aldığı videomaterial erməni dilində tərcüməçinin iştirakı ilə tədqiq edilib. 2019-cu ilə aid videomaterialda D.Tonoyan bildirir: “Mən bir müdafiə naziri kimi o tezisə qarşıyam ki, sülh müqaviləsi ilə əraziləri vermək olar. Bu tezisə qəti şəkildə qarşıyam. Mən burada bu gün yalnız bir tezis irəli sürürəm: yeni müharibə, yeni ərazilər”.

Məhkəmədə qondarma rejimin “ordusunun qərargah rəisinin müavini” Kamo Vardanyanın imzaladığı məxfi sənəd də tədqiq edilib. Əmrin icrasına nəzarət “ordunun artilleriya üzrə komandirinin müavini”nə tapşırılıb. Əmrə “atəşlə məhv edilməyə məruz qalacaq yaşayış məntəqələrinin siyahısı” da əlavə olunub. Siyahıda Azərbaycanın 70-dək yaşayış məntəqəsinin, o cümlədən Gəncə, Mingəçevir, Naftalan şəhərlərinin, Beyləqan, Ağcabədi, Yevlax, Bərdə rayonlarının və kəndlərinin adları yer alıb.

Təqsirləndirilən şəxs səfərbərlik məsələləri ilə bağlı təşkilati işlərlə məşğul olduğunu bildirib. Deyib ki, səfərbərliklə döyüşə qoşulanların qeydiyyatı kənd məktəbində aparılıb və orada onlara silah paylanılıb. O, qondarma qurumun “ordusu” üçün hərbi təyinatların Ermənistandan gəldiyini etiraf edib və söyləyib: “Ehtiyat qurtaranda təminat qeyd etdiyim kimi, bu cür həll olunurdu. Bu, bütün təminat növlərinə, həm texnikaya, həm də canlı qüvvəyə aid idi”.

D.Manukyan Azərbaycanın döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərində mülki infrastrukturun, yaşayış məntəqələrinin “İsgəndər M”, “Toçka U” və digər raketlərlə vurulması barədə əmrin kim tərəfindən verilməsi ilə bağlı məlumatsız olduğunu deyib. Əlavə edib ki, qondarma rejimin “ordusu”nun ştat strukturunda belə silahlar olmayıb.

Məhkəmə prosesi iyunun 20-də davam etdiriləcək.

*XQ*

# Azərbaycanlı alim Özbəkistanda seminar keçirib

**Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondunun müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Nardanə Yusifova Özbəkistan Milli Rəssamlıq və Dizayn İnstitutunda “Dekorativ tətbiqi sənətdə perspekta və riyazi məntiqi yanaşmada fəza təfəkkürünün rolu” mövzusunda seminar keçirib.**

Bu barədə mətbuata məlumat verən dosent Nardanə Yusifova bildirib ki, seminarın məqsədi incəsənətin bütün sahələrində hər bir sənətkarın istifadə etdiyi riyazi məntiqi-perspektiv yanaşmanın nəzəriyyəsinin elmi mahiyyətini əyani nümunələrlə vurğulamaq olub.

Dosent N.Yusifova seminar iştirakçılarına bu elmi yanaşmanın incəsənətdəki xüsusi əhəmiyyətini çatdırıb və onların suallarını cavablandırıb. Seminar, eyni zamanda, Azərbaycan–Özbəkistan qardaşlıq əlaqələrinin, həmçinin incəsənət-elm vəhdətində əməkdaşlıq üzərində davam edəcəyi kimi dəyərlədirilib.

**XQ**

## “Bakı Neft Mədən Avadanlıqları” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

(manatla)

| AKTİVLƏR | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 327.714 | 366.474 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***327.714*** | ***366.474*** |
| Ehtiyatlar | 409.834 | 497.251 |
| Qısa müddətli debitor borcları | 502.488 | 13.506 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 107.266 | 11.483 |
| Gələcək dövrün xərcləri | 955.022 | 933.553 |
| Sair qısa müddətli aktivlər | 24.431 | 11.968 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***1.999.041*** | ***1.467.761*** |
| **CƏMİ AKTİVLƏR** | ***2.326.755*** | ***1.834.235*** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 765.876 | 765.876 |
| Kapital ehtiyatları | 503.892 | 503.985 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 263.325 | 128.797 |
| **CƏMİ KAPİTAL** | ***1.533.093*** | ***1.398.657*** |
| **ÖHDƏLİKLƏR** | | |
| Qısa müddətli faiz xərcləri yaradan öhdəliklər | 110.000 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 213.034 | 42.221 |
| Qısa müddətli kreditor borcları | 411.711 | 238.394 |
| Sair qısa müddətli öhdəliklər | 1.221 | 802 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 57.696 | 154.161 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | ***793.662*** | ***435.578*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **793.662** | **435.578** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2.326.755** | **1.834.235** |
| **MƏNFƏƏT** VƏ **ZƏRƏRLƏR HESABATI** ***(xərclərin funksiyaları üzrə)*** | | |
| Əsas əməliyyat gəliri | 2.710.010 | 1.762.511 |
| Satışın maya dəyəri | 2.319.148) | 1.562.505) |
| **Ümumi mənfəət** | **390.862** | **200.006** |
| Ümumi və administrativ xərclər | (61.706) | (49.061) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **329.156** | **150.945** |
| **Vergi tutmadan əvvəl mənfəət (zərər)** | **329.156** | **150.945** |
| Mənfəət vergisi | (65.831) | (23.949) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **263.325** | **126.996** |
| İştirak edən səhmlərin sayı | 382.938 | 382.938 |
| Hər səhm üzrə mənfəət | **0,69** | **0,33** |
| **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI** | | |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 329.156 | 126.996 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 38.760 | 45.301 |
| • Ehtiyatlar üzrə (artım)/azalma | 87.417 | (59.692) |
| • Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | (510.451) | (154.994) |
| • Sair qısa müddətli aktivlərdə (artım)/azalma | (12.464) | (2.317) |
| • Cari vergi öhdəliklərində artım/(azalma) | 170.813 | (49.021) |
| • Əməliyyat kreditor borclarında artım/(azalma) | 173.318 | 201.722 |
| • Sair qısa müddətli öhdəliklərdə artım/(azalma) | 419 | |
| • Ödənilmiş mənfəət vergisi | (65.831) | |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **211.137** | **107.995** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri -maddi aktivlərin əldə edilməsi | | (30.460) |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **-** | **(30.460)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Təsisçidən borc şəklində daxil olma | | 502 |
| Verilmiş dividend | (225.262) | (74.612) |
| Banklardan kredit şəklində alınmış məbləğlərin ödənilməsi | 110.000 | |
| Kapital ehtiyatlarından istifadə | (93) | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(115.355)** | **(74.110)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **11.483** | **8.058** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **107.265** | **11.483** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nzamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **2022-ci il dekabrın 31-nə qalıq** | **765.876** | **505.785** | **211.453** | **1.483.114** |
| 2023-cü ilin kapital ehtiyatlarında düzəlişlər | | (1.800) | 1.800 | - |
| 2023-cü il üzrə xalis mənfəət | | | 126.996 | 126.996 |
| Elan olunmuş dividend | | | (211.453) | (211.453) |
| Kapital ehtiyatlarından istifadə | | | | - |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **765.876** | **503.985** | **128.796** | **1.398.657** |
| 2024-cü ilin kapital ehtiyatlarında düzəlişlər | | | | - |
| 2024-cü il üzrə xalis mənfəət | | | 263.325 | 263.325 |
| Elan olunmuş dividend | | | (128.797) | (128.797) |
| Kapital ehtiyatlarından istifadə | | | (93) | (93) |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **765.876** | **503.985** | **263.232** | **1.533.093** |

**“BAKI NEFT MƏDƏN AVADANLIQLARI” ASC-nin idarə heyətinə**

Mən,“**BAKI NEFT MƏDƏN AVADANLIQLARI**” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti,mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit, təqdim olunmuş sənədlər əsasında aparılmışdır.

Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun şəkildə ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının BAS-lara (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik **ASC-ni** ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik **ASC-nin** fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim də daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik ,əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər, ayrılıqda ,yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

**Sərbəst auditor Köçəri Əmrah oğlu Əliyev**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 125 (30819) 20 iyun 2025-ci il, cümə

Keçilməz yollarla

# 2 təkər üstündə boy atan məşhurluq

## *Həmyerlimizin sorağı Rusiya yarışmasından gəlir*

**“Orta məktəbin 9-cu sinfində oxuyanda velosiped sürmək həvəsinə düşdüm. Atam yaxın bir dostunun eyvanındakı sınıq-salxaq “Desna” markalı bir velosipedi gətirib dedi ki, əgər bunu sazlasan, onda həvəsinin ötəri olmadığına inanaram”.**



Avtomobil həvəskarı Aleksandr Semixov sonra sözünə davam etdi:

– Heç üstündən bir ay keçməmiş velosipedi işlək vəziyyətə gətirdim. Üstəlik, velosipedi yaraşıqlı və baxımlı etdiyimə görə tay-tuşlarımın gözü onda idi. Avtomobil dünyasına qədəm basmağım da belə iki təkərin üstündən başlandı...

Beləcə Aleksandrın 14 il əvvəl aldığı köhnə “QAZ-69” markalı avtomobilin indi Rusiyanın məşhur avtomobil sosial şəbəkələrində “Drive 2” markalı ən yaxşı minik avtomobilləri sırasında 5-ci yerdə olması heç də təəccüblü deyil...

Aleksandr 1997-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib, bir sıra şirkət və təşkilatlarda işləyib. 2008-ci ildən neft şirkətlərindən birində mühəndis işləyir. Texnikaya olan həvəsi 2006-cı ildən onu “4x4 off-roud” klubuna aparıb çıxarıb.

“QAZ-69” markalı avtomobilə xüsusi həvəs göstərən Aleksandr sosial şəbəkələr vasitəsilə 2011-ci ildə Binəqədi qəsəbəsində həmin markadan 1965-ci ildə istehsal olunan avtomobilin satıldığını öyrənib və onu alıb. Maşının oturacaq və sükanını, sürət və paylayıcı qurğusunu, banını, körpüləri tamamilə yenisi ilə əvəz edib. Köhnə təkərləri Rusiyadan gətizdirdi yolsuzluq şəraitinə uyğunlaşdırılmış təkərlərlə dəyişib. Avtomobilin benzin mühərrikini 75 at gücündən 92-95 at gücünə çatdırıb. Avtomobilin rahatlığı və xarici görünüşü də tamamilə dəyişib.

Bundan sonra o, bir neçə dəfə “off-raud” yürüşlərinin iştirakçısı olub. 2012-ci ildə Qobustan rayonunun Cəngi kəndi yaxınlığında və 2013-cü ildə Zirə qəsəbənin yaxınlığında keçirilən “Payız və Cimərlik Jeep Trial”, Xızı rayonunda səmti müəyyənləşmə yarışlarında iştirak edib və yüksək nəticələr göstərib.

**Həmin yarışlarda səfər yoldaşı olan yaxın dostu Roland deyir:**

– Saşanın dəvəti ilə 14 il əvvəl 4x4 klubuna üzv yazılmışam. Bir yerdə Qubanın Xınalıq, Dəhnə və Qrız kəndlərinə, Şabranın Nohurlar kənlərində, Altıağac və Xızı rayonlarında bir çox keçilməz dağ kənd yollarını birlikdə keçmişik. Biz əsasən o yerlərə turizm səfərlərinə gedirik ki, oradakı yolsuzluq şəraitində hər maşınla hərəkət etmək olmur. Onun “QAZ-69”-unun keçdiyi yolları müasir avtomobillərin çoxu keçə bilmir.

Aleksandr Semixovu sevimli “QAZ-69” ilə son illər tez-tez keçirilən klassik avtomobillərin yürüşündə görmək olar. 2018, 2019, 2023 və 2024-cü illərdə ölkəmizdə təşkil olunan klassik avtomobillər yürüşünün iştirakçısıdır. Onu da qeyd edək ki, Aleksandrın qızı Alika bu il Bakıda keçirilən Formila-1 yarışlarının marşalı olub.

Müasir şəxsi minik maşını olsa da, “QAZ-69” Aleksandr üçün ən sevimli nəqliyyat vasitəsidir. Avtomibil həvəskarları onu yaxşı tanıyırlar, məsləhət və tövsiyələrinə diqqət kəsilirlər.

...Retro görünüşü ilə diqqəti özünə cəlb edən QAZ-69 daşlı-kəsəkli, palçıqlı yollarla irəliləyir. Yol nə qədər ağır və çətin olsa da, heç bir maneə onun qarşısını kəsə bilməz. Çünki sükan arxasında Aleksanr Semixovdur.

***Süleyman QARADAĞLI***

İdrakın kodları

# Kainatın kodu: Fiziki sabitləri kim tənzimləyib?




## VI YAZI

### 1. Kainatın sabitlik mexanikası

Fiziki kainat təsadüflər məkanına yox, heyrətamiz sabitliyə əsaslanır. Cazibə sabiti (G), işıq sürəti (c), Planck sabiti (h), elektronun yükü (e) və digər universal konstantlar milyardlarla il ərzində dəyişmədən qalır. Əgər bu sabitlərdən hər hansı biri azca fərqli olsaydı – məsələn, cazibə bir qədər güclü, yaxud zəif olsaydı – nə ulduzlar yaranardı, nə atomlar birləşərdi, nə də həyat mümkünsüz qalmazdı.

Bütün bu sabitliklər elə bir dəqiqliklə tənzimlənib ki, sanki kainat böyük bir proqram əsasında işləyir. Bəs bu proqramı kim yazıb?

### 2. Antropik prinsip

Antropik prinsipə görə, biz bu kainatda varıq, çünki bu kainat yaşamağa imkan verir. Yəni əgər sabitlər fərqli olsaydı, müşahidəçi kimi biz də mövcud olmazdıq. Bəzi alimlər bunu məntiqi dövrə hesab etsələr də, digərləri bu prinsipi həyatın kodlaşdırılmış mümkünlüyü kimi qəbul edir.

Bəziləri isə düşünür ki, saysız kainatlar mövcuddur və biz yalnız həyat üçün “uyğun konfiqurasiyalı” birində yaşayırıq. Belə çıxır ki, mövcudluğumuzun özü, seçilmiş bir sabitlik üzərində qurulub.

### 3. Parametrlər dəyişsəydi, həyat olardımı?

Cazibə sabiti bir qədər böyük olsaydı, ulduzlar çox tez sönərdi. İşıq sürəti dəyişsəydi, enerji və maddə arasındakı tarazlıq pozular, proton və neytronun kütləsindəki kiçik fərqlər sabit atomları məhv edərdi. Sadəcə bir neçə faiz dəyişiklik belə, həyat üçün şəraitin kökündən pozulmasına səbəb olardı.

Bu isə göstərir ki, həyat – təsadüf deyil, incə kodlaşdırılmış parametrlərin harmoniyasıdır. Bəs bu harmoniyanı kim qurub?

### 4. Kainatın “proqramçısı” varmı?

Kod varsa, onu yazan da var. Əgər kainatın sabitləri, başlanğıc şərtləri və inkişaf trayektoriyası dəqiq tənzimlənibsə, bu tənzimləmənin arxasında məqsədmi dayanır? Bəziləri bunu elmə yox, fəlsəfəyə aid sual sayır, digərləri isə kodun varlığını niyyətin sübutu kimi görür.

Bəlkə də biz kodun içindəki sükutu dinləməliyik – orada bizə tanış olan bir səs var: yaradılışın niyyəti.

### 5. Son söz: Sabitliyin arxasındakı niyyət

Kainatın sabitləri təkcə riyazi düsturlar deyil. Onlar həm də həyatın mümkünlüyünü, varlığın ritmini və zamanın davamlılığını təmin edən “yaradılış kodlarıdır”. Bu kodlar vasitəsilə Tanrı, kainata öz izini qoymuş ola bilər.

Və bəlkə də biz — düşünən varlıqlar — bu kodları çözmək üçün yaranmışıq. Çünki hər sabitin arxasında bir mənanın işartısı gizlənir. Kod varsa, onu oxuyan da var.

***Oğuz ARİF***

# BMU dünya universitetləri 1000-liyində yer alıb

**Dünya universitetlərinin yeni reytinq siyahısı (QS World University Rankings 2026) açıqlanıb. Bakı Mühəndislik Universiteti (BMU) reytinq siyahısında ciddi irəliləyişə nail olub. Siyahıda dünya üzrə ilk TOP 1000-ə daxil olan BMU ötən illə müqayisədə 550 pillə irəliləyərək 901-950 aralığında qərarlaşıb.**




Qeyd edək ki, ümumilikdə 6 universitetimiz “QS 2026 dünyanın ən yaxşı universitetlərinin reytinqi”ndə TOP 1000-ə daxil olub. “Akademik nüfuz”, “İşəgötürənlər arasında nüfuz”, “Müəllim-tələbə nisbəti”, “Əcnəbi müəllim payı”, “Əcnəbi tələbə payı” və “Məşğulluq nəticələri” indikatorları üzrə Azərbaycan universitetlərinin göstəricilərində müsbət dinamika müşahidə olunub.

Reytinqin nəticələrinə əsasən, Azərbaycan Cənubi Qafqaz regionunda lider mövqedədir və ölkəmizdən reytinqə daxil olan universitetlərin sayı Cənubi Qafqazın digər dövlətlərindən reytinqə düşən universitetlərin toplam sayından 3 dəfə çoxdur.

***XQ***

Hava

# Yağmursuz və günəşli hava



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi ilə əsəcək. Havanın temperaturu gecə 19-22, gündüz 26-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 757 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində mülayim cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 20-21, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 22-23 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu 18-23, gündüz 30-35, dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti olacaq.

***Q.QASIMOV***
***XQ***

İdman

# Voleybolçularımız Farer adalarında



**Gümüş Avropa Liqasında çıxış edən kişi voleybolçulardan ibarət Azərbaycan millisi 3-cü tura ev sahibliyi edəcək Farer adalarına yola düşüb. Bu barədə mətbuata Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Turnirin iyunun 20-22-də baş tutacaq üçüncü turunda Azərbaycan yığmasının rəqibləri Farer adaları və Avstriya komandaları olacaq.

# Kəmər dərəcələri imtahanı

**Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkilatçılığı ilə iyunun 21-də Bakıda kəmər dərəcələri üzrə rəsmi imtahan təşkil ediləcək.**



Milli komandaların Təlim-Məşq Mərkəzində (ACF-nin inzibati binası) gerçəkləşəcək imtahanın 7 yaşdan yuxarı cüdo ilə məşğul olan hamı üçün açıq olduğu bildirilib.

Kəmər seçimi müvafiq yaş uyğunluğuna əsasən aparılacaq. İmtahanı uğurla keçən namizədlərə ACF tərəfindən müvafiq kəmər və sertifikat təqdim ediləcək. Qeyd edək ki, kəmər imtahanı peşəkarlıq səviyyənin qiymətləndirilməsi və rəsmi olaraq tanınması, həmçinin gələcəkdə nüfuzlu daxili yarışlarda iştirak üçün zəruridir.

# Braziliyalı futbolçu “Araz-Naxçıvan”da oynayacaq

**Braziliyalı sol cinah müdafiəçisi Bruno Franko ilə anlaşma 1 illikdir. 27 yaşlı futbolçu ötən mövsüm Bolqarıstanın “Lokomotiv” (Sofiya) komandasında çıxış edib. “Lokomotiv”ə qədər o, “Spartak” (Pleven), eləcə də Braziliyada “Matonense”, “Rio Branko”, “Batatais”, “Moqi Mirim” klublarının formasını geyinib.**



Qeyd edək ki, buna qədər baş məşqçi Elmar Baxşıyevlə yanaşı, İssof Paro, Ömər Buludov, Kristian Avram, Tərlan Əhmədli, Ürfan Abbasov, Slavik Alxasov, Qara Qarayev, Bəxtiyar Həsənalızadə, Ülvü İsgəndərov, Vanderson Melo, Ramon Maçado və Nuno Rodrigueslə başa çatan müqaviləni yeniləyən, Bar Cohen, Çance Simakala Ba-Muakanı transfer edən “Araz-Naxçıvan” Vadim Abdullayev, Sezar Meza Kolli, Karlos Jatoba, Bernardo Dias və Miço Kuzmanoviçlə yollarını ayırıb.

***M.HACIXANLI***
***XQ***

**B İ L D İ R İ Ş**

**GİLAR yeraltı mədəninin tikintisi və istismarı üzrə ƏMTQ layihəsinə dair ictimai dinləmə 2025-ci il iyunun 24-də AİMKLŞ-ın Gədəbəy rayonundakı ofisinin iclas zalında keçiriləcək. Maraqlı tərəflər görüşə dəvət olunur.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

T E L E F O N L A R:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3693
SİFARİŞ 1249
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00